

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Nurlu ömrün böyük salnaməsi - Zərifə xanım Əliyeva




3


# SƏS

№ 066 (6749)

18 aprel 2023-cü il.
Qiyməti 60 qəpik


## Dost ölkə və əsl etibarlı tərəfdaş: Azərbaycan -Bosniya və Herseqovina



2

İLHAM ƏLİYEV: "Strateji tərəfdaşlıq əlaqələri hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur"

# Azərbaycan regionun kosmik mərkəzinə çevrilib




14

### AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri uğurla həyata keçirib



4

### Tehran süqut ərəfəsində: buna sübut Bakıya qarşı artan təhdid-




6

### Bu il qəbul imtahanlarında ballar aşağı düşəcək?



16



12

### Toy və yas adətlərinə pandemiyadan sonra BAXIŞ

### Kart adam



7

# Dost ölkə və əsl etibarlı tərəfdaş: Azərbaycan -Bosniya və Herseqovina

*İLHAM ƏLİYEV: "Strateji tərəfdaşlıq əlaqələri hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur"*



**"Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq". Bunu Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə mətbuata bəyanatında bildirib."Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək", - deyə dövlət başçısı vurğulayıb.**

## AZƏRBAYCAN ETİBARLI, CİDDİ VƏ BÖYÜK UĞURLARA İMZA ATMIŞ TƏRƏFDAŞ ÖLKƏDİR

Bu gün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 19 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı. Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa edib və yeni reallıqlar yaradıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Belə ki, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Bosniya və Herseqovina ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir.

## AZƏRBAYCAN MÜSTƏQİL DÖVLƏTDİR VƏ MÜSTƏQİL XARİCİ SİYASƏT HƏYATA KEÇİRİR

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayır ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil xarici siyasət həyata keçirir: "Bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir". Bəli, hazırda Azərbaycanı beynəlxalq münasibətlər sistemində səciyyələndirən əsas cəhətlərdən biri ölkəmizin milli mənafeyə əsaslanan müstəqil xarici siyasət yürütməsidir. Azərbaycan iqtidarı ölkənin strateji inkişaf hədəflərini, o cümlədən də xarici siyasətini məhz milli maraqlara uyğun müəyyənləşdirib və ölkəmizin, xalqımızın maraqlarını yüksək səviyyədə təmin etmək üçün daim qətiyyət nümayiş etdirir. Respublikamızın ardıcıllıqla həyata keçirdiyi uğurlu xarici siyasət Prezident İlham Əliyevin müəyyənləşdirdiyi belə bir fundamental amilə əsaslanır ki, ölkələr, xalqlar arasında münasibətlər və müxtəlif əməkdaşlıq formatları bərabərlik və qarşılıqlı faydalılıq kimi prinsiplər əsasında qurulmalıdır. Azərbaycan da özünün xarici siyasətində məhz bu mövqedən çıxış edərək regional və qlobal əməkdaşlığa, dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir. Dövlət başçımızın söyəldiyi kimi, biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq: "...Bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur".Bu baxımdan, Prezident İlham Əliyevin aprelin 13-də Bosniya və Hersoqovinaya rəsmi səfəri ölkələrimiz arasında əlaqələrin daha da inkişafı və dərinləşməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Bosniya və Hersoqovina arasında səmimi əlaqələr mövcuddur. Qeyd edək ki, bir ay öncə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin ölkəmizə səfər etmişdi. Bu baxımdan Prezident İlham Əliyevin Sarayevoya səfəri ölkələrimiz arasında mövcud olan əlaqələrin daha da inkişaf etdirilərək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması baxımından olduqca vacibdir. Həmçinin, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanın haqq işini dəstəkləyib. Bütün bunlar iki ölkə arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından atılmış mühüm addımlardır".

Dövlət başçısının dediyi kimi, son vaxtlar Azərbaycanla Bosniya və Herseqovina arasında ticari-iqtisadi əlaqələrin inkişafında yüksək dinamizm özünü göstərir. Azərbaycanla Bosniya və Herseqovina arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə bu mənada çox ciddi və perspektivli bir sənəd kimi iki ölkə arasında gələcək inkişafın istiqamətlərini müəyyənləşdirib. Bu Bəyannamə ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində mühüm rol oynayacaq. Strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulayan Prezident İlham Əliyev çıxışında "Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

## BU, HƏR İKİ ÖLKƏNİN ÜZƏRİNƏ ÇOX BÖYÜK MƏSULİYYƏT QOYUR. BİZ BU MƏSULİYYƏTƏ HAZIRIQ

Sözü imzası qədər dəyərli və keçərli olan Prezident İlham Əliyevin son 19 il prezidentlik fəaliyyəti və əldə olunan nailiyyətlər bu faktorun təsdiqidir. Azərbaycan Prezidenti çıxışlarında da dəfələrlə qeyd edir ki, "Bizim sözümüz imzamız qədər keçərlidir". Bəli, keçərli olduğu qədər həm də dəyərlidir və nəyi, nə zaman və necə etməyi hamıdan yaxşı bilən qətiyyətli və qüdrətli öz haqlı yolundan döndərə bilməz. Prezident İlham Əliyev Azərbaycanla Bosniya və Herseqovina arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamədə də bildirmişdir ki, Bosniya və Herseqovina-Azərbaycan əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək: "Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi". Dövlət başçımız Bosniya və Herseqovina ilə münasibətlərimizin yeni səhifəsinin başlandığını deyərək bildirmişdir ki, strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir: "Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək".

Dövlət başçımızın dost ölkələrə hər səfəri zamanı imzaladığı sənədlər və əldə olunan razılaşmalar müstəsna əhəmiyyətə malik olmaqla yanaşı, əlaqələrin sağlam təməl üzərində qurulmasına şərait yaradır. Ən əsası isə, Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması bütün dünyada etiraf olunan həqiqətdir. Azərbaycan Prezidenti ilə görüşən hər bir dövlət başçısı ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bəyan edirlər. Prezident İlham Əliyevin Bosniya və Herseqovina dövlət səfəri bunları bir daha təsdiq etdi. Azərbaycan Avropada daha bir strateji tərəfdaş qazandı və ökəmizin başçısı vurğulayıb ki, "Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək".

Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanla Bosniya və Herseqovina arasındakı münasibətlərin ikitərəfli və beynəlxalq miqyasda daha da möhkəmlənməsinə müsbət təsir göstərəcək.

*RƏFİQƏ KAMALQIZI*



## Birinci vitse-prezident Mehriban Əliyeva Pasxa bayramı münasibətilə paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Pasxa bayramı münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Pasxa bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!"



# Nurlu ömrün böyük salnaməsi - Zərifə xanım Əliyeva






Qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə - insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır. Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub.

Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftamoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın bu gün anım günüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir.

O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Özü də yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub.

Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir. İnsana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir kimi tövsiyələri diqqəti çəkir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verib.

Çox alimlər, ziyalılar onun ünvanına - şəxsiyyətinə, elmi uğurlarına, tədqiqatlarına yüksək fikirlərini bildiriblər. Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**ZÜMRÜD BAYRAMOVA**



# AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri uğurla həyata keçirib

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbul vilayət təşkilatında görüş keçirilib








Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir. AZƏRTAC-ın Türkiyəyə ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevdən ibarət nümayəndə heyəti ilə aprelin 15-də Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) İstanbul vilayət təşkilatında görüş keçirilib.

Görüşdən əvvəl Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş mətbuat konfransında jurnalistlərin suallarını cavablandırıblar.

Numan Kurtulmuş bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" təfəkkürü ilə sürətlə inkişaf edir. Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın dostluq və qardaşlıq münasibətləri, dövlət qurumlarımızın da işbirliyi ilə iki qardaş ölkə arasında münasibətlər sürətlə inkişaf edərək hazırda müttəfiqlik səviyyəsinə yüksəlib. Azərbaycan-Türkiyə əlaqələrinin bütün mərhələlərdə daha da möhkəmləndiyini vurğulayan AK Parti Sədrinin birinci müavini diqqətə çatdırıb ki, təkcə dövlətlərimiz arasında əlaqələr deyil, qardaş xalqlarımızın münasibətləri də gündən-günə inkişaf edir.

İşğal altındakı torpaqlarının azad edilməsi uğrunda 44 günlük qəhrəmanlıq dastanının yazıldığı Vətən müharibəsində də Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən Numan Kurtulmuş deyib ki, Türkiyənin beynəlxalq aləmdə nüfuzu, milli müdafiə sənayesi onun bütün imkanları ilə Azərbaycanın yanında olmasına şərait yaratdı. Nəticədə beynəlxalq təşkilatların, o cümlədən Minsk Qrupunun 30 il ərzində bu istiqamətdə heç bir addım atmadığı problem Türkiyənin köməyi və Azərbaycanın mübarizəsi ilə həllini tapdı.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyədə baş vermiş zəlzələ zamanı həyatını itirənlərlə bağlı başsağlığı verərək, yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

Tahir Budaqov bildirib ki, dərin köklərə malik Azərbaycan-Türkiyə münasibətləri bir çox sınaqlardan çıxıb. Əlaqələrimiz 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi yüksək siyasi, mənəvi dəstəyindən sonra keyfiyyətcə yeni müstəviyə qədəm qoyub. Azərbaycan xalqı bu dəstəyi, qardaşlığı, dostluğu heç zaman unutmayacaq.

YAP-ın Azərbaycan qarşısında duran yeni vəzifələrin həyata keçirilməsi, məqsədlərə nail olunması üçün genişmiqyaslı fəaliyyət həyata keçirdiyini vurğulayan Tahir Budaqov deyib: "İyunun 2-də Türkiyəyə səfərimiz zamanı Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə Yeni Azərbaycan Partiyası arasında imzalanmış əməkdaşlıq Sazişini xüsusi qeyd etmək istəyirəm. Həmin Saziş imzalandıqdan sonra AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri həyata keçirib, uğurlu əməkdaşlıq edib. Bu qısa zaman kəsiyində hətta beynəlxalq səviyyəli tədbirləri də birlikdə reallaşdırmışıq".

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının regionda yeni reallıqlar yaratdığını söyləyən Tahir Budaqov postmünaqişə dövründə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq işlərində Türkiyənin ölkəmizə verdiyi dəstəyi xüsusi vurğulayıb. Qeyd edib ki, Türkiyədə zəlzələ nəticəsində zərər çəkmiş bütün bölgələrdə aparılacaq quruculuq işlərində də ölkələrimiz birlikdə olacaq, bu işləri birgə həyata keçirəcək. Yeni Azərbaycan Partiyası Sədrinin müavini vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi dostluq əlaqələri bütün bölgədə sabitlik və inkişaf üçün möhkəm əsaslar yaradıb. Bu proses artıq bütün dünyanın diqqətini cəlb edib, beynəlxalq güclərin maraq dairəsinə düşüb. Son illərdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və liderliyi ilə həyata keçirilən tədbirlər nəticəsində türk dövlətlərinin daha da yaxınlaşmasının, vahid bir təşkilat olaraq fəaliyyət göstərməsinin şahidi oluruq. Yaranmış tarixi fürsəti düzgün qiymətləndirməli və bu imkandan türk dövlətlərinin hamısının faydalanmaq şansını əldən verməməliyik. Sonra xatirə şəkli çəkdirilib.

# YAP Mərkəzi Aparatında professor Əjdər İsmayılovun anadan olmasının 85-ci ildönümünə həsr olunan konfrans keçirilib

Aprelin 15-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "91-lər"dən olan, filologiya elmləri doktoru, tarixçi alim, professor Əjdər İsmayılovun anadan olmasının 85-ci ildönümünə həsr olunan konfrans keçirilib.





Tədbiri giriş sözü ilə açan YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Əjdər İslamyılovun həyat və fəaliyyəti haqqında danışaraq onun şərəfli ömür yolu keçdiyini bildirib. Əjdər İsmayılovun görkəmli elm xadimi, nüfuzlu ziyalı olduğunu deyən A.Rəhimzadə diqqətə çatdırıb ki, o, həyatının sonuna qədər ulu öndər Heydər Əliyev ideyalarına sadiq qalıb, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirib. Əjdər İsmayılov bütün fəaliyyətində dövlətçiliyə sadiq olub və xalqımıza şərəflə xidmət göstərib.





YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında Əjdər İsmayılovun Azərbaycan elmində böyük iz qoyduğunu deyib. Bildirib ki, həm filologiya, həm də tarix sahəsində mərhum professorun mühüm elmi əsərləri və araşdırmaları var. S.Qurbanov qeyd edib ki, 1990-cı illərin əvvəlində mövcud olan böhran şəraitində Azərbaycanın gələcəyini düşünən ziyalılar kimi Əjdər İsmayılov da xalqımızın üzləşdiyi çətinliklərdən xilas yolunu ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Bu səbəbdən də, görkəmli ziyalımız həm 1992-ci ildə yaş senzinin ləğv olunması tələbi ilə keçirilən mitinqlərdə fəal iştirak edib, həm də Ulu Öndərə müraciət etmiş "91-lər"dən biridir. S.Qurbanov Əjdər İsmayılovun həyat və fəaliyyətini sədaqət və cəsarət nümunəsi kimi səciyyələndirib.



Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi Şahlar Əsgərov isə Əjdər İsmayılovu möhkəm əqidəli və prinsipial şəxs kimi dəyərləndirib. Məhz bu mövqeyinin nəticəsidir ki, o, "91-lər"in müraciətinə imza atıb. Çünki o zaman Heydər Əliyevi müdafiə edənlər ovaxtkı hakimiyyət tərəfindən təzyiqlərə, təhdidlərə məruz qalırdılar. Amma Əjdər İsmayılov heç vaxt öz prinsipial mövqeyindən dönmədi. Ş.Əsgərov həmçinin Ə.İsmayılovun Azərbaycan elminə böyük töhfələr verdiyini vurğulayıb.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli çıxışında professor Əjdər İsmayılovun Azərbaycan elmi qarşısında xidmətlərindən, Hüseyn Cavid yaradıcılığı ilə bağlı araşdırmalarından, ermənilərin tarixi saxtalaşdırmaq cəhdləri ilə mübarizəsindən ətraflı bəhs edib. Vurğulayıb ki, Əjdər İsmayılov həm də böyük türkçü alim idi.

Konfransda daha sonra YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, AMEA-nın Qafqazşünaslıq İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, professor Qasım Hacıyev, YAP Veteranlar Şurasının üzvü, akademik Sudeyf İmamverdiyev, YAP Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcov və digərləri çıxış edərək mərhum professor Əjdər İsmayılovun cəsarətli, qətiyyətli mövqeyindən, ulu öndər Heydər Əliyev yoluna sadiqliyindən ətraflı bəhs ediblər. Mərhum professorun elmi yaradıcılığından danışan natiqlər vurğulayıblar ki, Əjdər İsmayılov "Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları", "Moisey Xorenatsi anonim keşiş müəllifdir", "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir", "Naxçıvan toponiminin etnotarixi əfsanələr qədər qədimdir" tarixi əsərlər və bir sıra elmi məqalələr yazaraq bizə miras qoyub. Bildirilib ki, professor Əjdər İsmayılovun həyat və fəaliyyəti gənc nəsl üçün nümunədir.

Sonda çıxış edən professor Əjdər İsmayılovun oğlu, iqtisadçı alim Cavid İsmayıl atası haqqında xatirələrini bölüşüb, onun ulu öndər Heydər Əliyev ideyalarına sadiqliyi, dövlətçiliyə xidmətləri ilə qürur duyduğunu vurğulayıb. C.İsmayılov atasının xatirəsinə göstərilən ehtirama, bu konfransın təşkil edilməsinə görə öz təşəkkürünü bildirib.

# YAP nümayəndə heyəti İstanbulda Ayasofya məscidini ziyarət edib

## Nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 15-də İstanbulda Ayasofya məscidini ziyarət edib.**

YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının

























sədri Samir Vəliyevdən ibarət nümayəndə heyətinə bu qədim dini məbədin tarixi haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, istifadəyə verildiyi 537-ci ildən 1453-cü ilədək kilsə, həmin tarixdən 1934-cü ilədək məscid, sonradan muzey olan Ayasofya yenidən məscid-muzey kimi fəaliyyət göstərir. Türkiyə Nazirlər Kabinetinin 1934-cü il noyabrın 24-də qəbul etdiyi qərarla Ayasofya məscid kimi fəaliyyətinin dayandırıb, muzey olaraq ziyarətçilərin üzünə açılıb. 2020-ci il iyulun 10-da Türkiyənin Dövlət Şurası (Danıştay) Ayasofyanın muzey kimi fəaliyyət göstərməsi ilə bağlı 1934-cü ildə qəbul olunan qərarı ləğv edib. Həmin gün Prezident Rəcəb Tayyib Ərdoğan Ayasofyanın məscidə çevrilməsi haqqında fərman imzalayıb. Beləliklə, 1985-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Ayasofya 86 ildən sonra yenidən müsəlmanlar üçün ibadət yerinə çevrilib.

Nümayəndə heyətinin üzvləri Ayasofya məscidi ilə tanışlıqdan sonra vətəndaşlara söhbət ediblər. Bildirilib ki, Türkiyə-Azərbaycan birliyi dünyada və regionda böyük əhəmiyyətə malikdir. Vətəndaşlar da "Bir millət, iki dövlət" tezisini bir daha xatırladıblar.

Sonra nümayəndə heyəti Fatih Bələdiyyəsinin nəzdindəki kitabxanada olub. YAP nümayəndə heyətinin üzvlərinə kitabxananın fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, buradakı kitab fondu həm tələbələr, həm də vətəndaşlar üçün əlçatandır.

Nümayəndə heyətinin üzvləri daha sonra Bağcılar Bələdiyyəsinin təşkil etdiyi xalq iftar mərasimində iştirak ediblər.

Dostluq və qardaşlıq mesajlarının verildiyi iftar mərasimində dünyaya nümunə olan Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığı bir daha vurğulanıb. Bildirilib ki, Azərbaycan və Türkiyə tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olublar. Türkiyə son 20 ildə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli inkişaf yolu keçib və dünyada söz sahibinə çevrilib.

YAP nümayəndə heyəti İstanbulun Zeytinburnu ərazisindəki İmam Cəfəri Sadiq məscidində yerli sakinlərlə görüşüb. Görüşdə Azərbaycanın və Türkiyənin vahid yumruq kimi bütün milli hədəfləri reallaşdırmaq əzmində və iqtidarında olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan və Türkiyə arasında münasibətlər ölkələrimizin rəhbərləri tərəfindən daha yüksək səviyyəyə çatdırılmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Bununla da YAP nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb.

ANALİTİK+AKTUAL

# Tehran süqut ərəfəsində: buna sübut Bakıya qarşı artan təhdidlərdir

*Ayətullahların parlament sədrinin iddiaları sanki terror çağırışlarına bənzəyir*

**İran adlı mollakratiya rejimində formalaşan daha bir reallıq budur ki, bu teokratik idarəçilik mexanizmi indi daha çox Azərbaycana qarşı öz iddialarını irəli sürməkdədir. Yalnız ölkəmizin çağdaş siyasi standartlara görə fəaliyyətinə deyil, həm də ərazilərinə, eləcə də ayrı-ayrı şəxslərinə qarşı (misal üçün, bu ölkəni sərt tənqid edən siyasi-ictimai şəxslərə, publik cameəyə, jurnalistlərə) təhdidlər yağdıran ayətullahlar bu kimi kirli, terror qoxusu verən bəyanatlarını artırmaqda israrlı olduqlarını nümayiş etdirirlər. Belə desək, Tehran rejimi artıq bu cür həyasızlığa əl atır: bu gün həmin rejimə qarşı sözünü deyənlər birmənalı olaraq onların göstərişləri və qoyduqları qaydalara riayət etməlidirlər (???!!!)**




Daha açıq ifadə edək - iranlı siyasi xadimlər Bakıya qarşı təlqin edirlər ki, "əgər bizim dediyimiz kimi hərəkət etməsəniz, biz ölçülər götürməli olacağıq". Əbəs deyil ki, bir neçə gün əvvəl İran parlamentinin sədr müavini Əli Nihzad necə deyərlər, öz təbirincə "ağıl" qoymağa çalışıb. O, təhdidlərlə müahidə edəcəyi sözlərini əvvəlcə "yumşaqlıqla" sığortalayıb, sonra isə sərt tona keçid edib. SİTAT: "İran böyük dövlətdir və tarixlər boyu öz qonşularına hörmət bəsləyib. Azərbaycan bilməlidir ki, İslam inqilabından sonra İranın qonşularından biri (İraq-R.R.) bir dəfə səhvə yol verib və müxtəlif ölkələrin dəstəyinə baxmayaraq 8 il boyunca İtana qarşı dayana bilməyib, ona görə də Azərbaycanın dövlət xadimlərinə məsləhət edirik ki, mehriban qonşuluq prinsiplərinə hörmət etsinlər".

Molla parlamentinin sədri bir az da irəli gedərək və əslində, sırf həyasızlıq nümayiş etdirərək Azərbaycanın Tehrandakı səfirliyinə edilən terror hücumunu elə təqdim edib ki, sanki Azərbaycan "günahkardır", üstəlik, sözügedən insidenti dünyaya çatdırmaqla böyük "səhvə" yol verib (???!!!). O, bu cür sərsəmləməyə davam edib. SİTAT: "İran indiyə qədər özünü layiqli aparıb, ona görə də Azərbaycan hökumətinə və parlamentinə məsləhət görürəm ki, bir daha düşünsün və hərəkətlərini korrektə etsin. Son günlər Azərbaycan dörd diplomatı ölkədən çıxarıb və söz yox ki, bizim XİN də cavab tədbirləri görəcəkdir, belə davranış yaxşı heç nə ilə bitməyəcək".

Əli Nihzad sonda "nöqtəsini" bu cür qoyub: "Azərbaycan avantüralara son qoymalıdır, İran indiyə qədər səbr və təmkin nümayiş etdirib və səbrin də həddi-hüdudu var".

Məgər bu kimi ifadələr, özü də rəsmi şəxs tərəfindən deyilən sözlər Tehranın Azərbaycanın daxili işlərinə qarışması anlamını daşımırmı? Yaxud, bu cür həddini aşan bəyanatların verilməsi sonrakı proseslərə daha hansı təsirləri göstərə bilər? Çünki mövcud vəziyyət artıq xarici politoloqların da diqqəti mərkəzindədir.

Rusiyalı siyasi şərhçi Tatyana Poloskovaya görə, Əli Nihzad heç doğru-dürüst siyasətçi də deyil və o cümlədən, onun beynəlxalq siyasətdən, diplomatiyadan anlayışı belə yoxdur. Poloskova İran parlamentinin sədrinin məlum bəyanatının elementar hörmətsizlik olduğunu deyib. Üstəlik bildirib ki, Əli Nehzadın təhsili şəhərsalma üzrə bakalavar səviyyəsindədir və o sonradan Sənaye menecmenti universitetinin dövlət idarəçiliyi üzrə magistr səviyyəsində təhsil alıb. Onun dövlət vəzifələri inşaat işləri və dövlət yollarının tikintisindən ibarət olub. "Lakin belə görünür ki, cənab Nihzad bəzi yollarını səhv salıb. Xüsusilə, onun Azərbaycanın Tehrandakı səfirliyinə edilən hücuma bağlı fikirləri suallar yaradır ki, bu onun şəxsi fikridir, yoxsa İran rəhbərliyi də belə hesab edir? Və o, yenə Bakıya qarşı özünün məntiqsiz məsləhtləri ilə ilişməyə başlayıb. Guya bu hadisə şəxsi motivlər səbəbindən baş verib. Axı şəxsi motivlərin buraya nə aidiyyatı var? Cinayət baş verib və həmin cinayətin ağırlığına görə də cəza tətbiq edilməlidir. Bu isə məsuliyyətdən kənarlaşdırılmamalıdır. Adam həlak olub, insanlar xəsarətlər alıblar", deyə Poloskova bildirib. O, bildirib ki, Nihzadın Bakını təhdid etməsi və Tehranın cavab tədbirləri görəcəyi ilə bağlı fikirləri bütün hədləri aşır və əslində, müasibətlərin tamamilə korlanması İran trəfindən tətbiq edilir.






Poloskova daha bir məqama toxunub - Azərbaycanın İsraillə strateji əməkdaşlıq qurmasına və İranın soinizm məsələsindəki oyunbazlıqlarına. SİTAT: "Nəyə görə Bakı İrandan davamlı olaraq "sionist rejimlə əməkdaşlıq" ittihamlarına məruz qalır? Cənab Nihzadın diqqətinə çatdırmaq istərdim ki, əslində "sionizm" anlayışında hər hansı təhlükəli heç nə yoxdur. Sionizm siyasi hərəkatdır və özündə yəhudi xalqının birləşməsini və tarixi vətəni İsraildə yaşamasını (Erets-İsrael) əks etdirir. Anlaşılan budur ki, sionizmə və sionistlərə qarşı bütün zamanlarda "köpəkləri qısqırdıblar", indi də belə davam edir. Əgər uzaq İran əyalətində yaşayan kəndli kimləri isə "sionist rejimi ilə əməkdaşlıqda" ittiham edərsə, bunu ona bağışlamaq olar, amma yüksək ranqlı dövlət məmurunu yox".

"Bəli, rəsmi Bakı İsraillə uğurlu əməkdaşlıq edir. Burada nə var ki? Məgər İsraillə əməkdaşlıq edən başqa müsəlman ölkələri yoxdurmu? Bundan sonra Nihzadın qəbuluna icazə ilə yazılmaq lazımdır? Siz öz bit-birələrinizlə özünüz maraqlanın Tehrandakı cənablar. Və sizin düşmən elan etdiyiniz ənənəvi ölkələrin agentlərinin dolduğu Ermənistandakı dostlarınızla da maraqlanın ki, orada nə baş verir?

Biz də tarixi yaxşı xatırlayırıq ki, bir zamanlar İran özünün erməni dəstəkçiləri ilə Rusiya səfirliyinə hücum edib, nəticədə səfir Qriboyedov və başqaları həlak olublar. Ona görə də rus atalar misalı ilə məsləhət vermək istərdim: "Aynanı günahkar çıxarmaq lazım deyil, bəlkə öz sifətində əyrilik var? İranın riyakarlığının qiymətini isə biz yaxşı bilirik", deyə Poloskova sonda vurğulayıb.

Qazaxıstanlı siyasi şərhçi Ruslan Salixov da mövzu ilə bağlı maraqlı detallara toxunub. Onun sözlərinə görə, Nihzadın ritorikası müqabilində İran düşünür ki, o hakimdir və buna görə də Bakıya təzyiq edərək və təhdid yürüdərək təsir göstərə biləcəyini sanır. SİTAT: "İran daim özünün Şimal qonşusuna qısqanclıqla yanaşıb. Bu ehtimal isə özünü doğruldub. Tehranda həmişə etiraf ediblər ki, Azərbaycan ərazisinin kiçikliyinə baxmayaraq güclü siyasi və iqtisadi potensiala malikdir və bundan daim qorxublar. Əlbəttə, bu qorxu və dərin təlaş ona görədir ki, Azərbaycan daha da güclənə və İrandakı etnik azərbaycanlılar da sonradan Azərbaycan Respublikasına birləşmək məqsədi ilə muxtariyyət tələbini isrəli sürə bilərlər. Bu baxımdan, İranda yaşayan azərbaycanlıların hüquqları daim basqı və təhdid altında saxlanılır".

"İndi isə Azərbaycan adi regional ölkə səviyyəsini də ötüb-keçirsə Tehran Bakını özünə açıq təhlükə kimi görür. 44 günlük müharibədəki qələbə İranın tiksik rejimini çox narahat edir. Bütün bunlar Tehranın şişərək partlamaq həddinə çatan ambisiyalarını daha da artırır".

Qazaxıstanlı politloqa görə, məhz bütün baş verənlərdə Tehran günahkardır, ona görə də zəhərli təhdidlər heç də İranın gücünü göstərmir, əksinə, acizliyini nümayiş etdirir. Bu, həm də onu sübuta yetirir ki, İranın molla rejimi artıq süqutu ərəfəsindədir.

***Rövşən RƏSULOV***

# PLANETİMİZİN TOLERANTLIQ VƏ DÖZÜMLÜLÜK MƏRKƏZİ TƏHLİL

İlham Əliyev: "Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar"



Azərbaycan bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən qürur hissi ilə deyə bilərik ki, bəli, Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzinə çevrilib. Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi - rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. yaşayır. Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti və s. göstərmək olar. Bütün xalqların nümayəndələri öz ayinlərini, milli bayramlarını sərbəst şəkildə yerinə yetirirlər. «Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti lham Əliyev Pasxa bayramı münasibəti ilə təbrikində bildirib: "Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər".

### Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri, mədəniyyəti ilə fəxarət hissi keçirən Ulu Öndər Heydər Əliyev dini abidələrə, mədəniyyət ocaqlarına ehtiyatla yanaşır, böyük həssaslıqla qayğı göstərdi. 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Ulu Öndər Heydər Əliyev islam dininə olan yüksək etiqadı, rəğbətinin təcəssümü kimi Məkkə şəhərini və Kəbəni ziyarət etdi. Bir neçə il sonra 1998-ci ildə isə Həcc ziyarətində oldu. Bu islami dəyərlərə olan münasibət idi. Ulu Öndər Heydər Əliyevin siyasi irsini və əsasını qoyduğu ənənələri inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev yürütdüyü siyasət dini konfessiyaların dinc yanaşı yaşamasını, qarşılıqlı əlaqəsini, müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə səy göstərmələrini təşviq edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir.

Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkəmizdə 2250-dən artıq məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bundan əlavə, Zaqatala və Balakən rayonlarında 127 hücrə vardır ki, onların 115-də Ramazan ayında və dəfn mərasimlərində ayin icra olunur. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. Bununla yanaşı, hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır. Ölkə başçısının göstərişi ilə bütün əsas dini abidələr təmir olunub. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib.

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biri olub.

### Multikulturalizm alternativi olmayan həyat tərzidir

Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və tikilməkdədir. Ölkəmizdə qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşaması hər kəsə bəllidir. Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir. Reallıq onu deməyə əsas verir ki, ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Kart adam

MƏTANƏT

***Həyatımızda hər şey kartlaşa-kartlaşa axır bizi kart adama çevirdi. İndi artıq biz kartlardan asılı kart adamlarıq. Belə ki, həyatımızda elə bir sahə yoxdur ki, onunla bağlı bir kartımız olmasın. Sudan istifadənin bir kartı, qazdan, elektrik enerjisindən istifadənin bir kartı, metro, avtobus kartları, əməkhaqqı kartı, bank kartları, ödəniş kartları, iş yerlərinə, təhsil müəssisələrinə giriş kartları, təqaüd kartları və saydıqca ardı gələn digər kartlar...***

Əvvəllər pul qabları istehsal olunurdu. Bir ədəd də cibləri olurdu. Həmin pul qablarında pulumuzu saxlayırdıq. Sonralar yavaş-yavaş pul qablarının forması dəyişdi. Elə ki, kart sisteminə keçid etdik, pul qablarına da kart cibləri əlavə olundu. Əvvəl bu ciblər az sayda idi. Vur-tut olardı bir-iki kartımız, onları da həmin ciblərdə saxlayırdıq. Sonralar isə kartların sayı artdıqca, pul qablarının da ciblərinin sayı artdı. Biz kartlarımızı həmin ciblərə düzdük düzə bildikcə...

Hazırda kartlarımızın sayı o qədərdir ki, satışda olan pul qablarındakı ciblərin sayı azlıq təşkil edir. Bəzi adamlar elə məhz buna görə artıq pul qablarını ixtisara salıb kartlıq adlanan çantalardan istifadə edirlər. Çünki biz artıq biz deyilik, kart adamıq.

Gələk bu kart adamların üzləşdiyi mənzərələrə... Məsələn, evdə işıq sönüb, pul ödəməlisən ki, axşam evə qayıdanda qaranlıqda qalmayasan. Belə olanda kart hökmən sənin yanında olmalıdır ki, ödəniş edəsən. Yox, kart əgər yadından çıxıb evdə qalıbsa, vay halına, axşam qaranlıqdasan. Eləcə də su, qaz, telefon, internet və sair...

Məsələn, əmək haqqını almısan, kartında dayanır. İşdən çıxırsan, yolda düşünürsən ki, evin bir-iki çatışmayanını alasan. Əlini atırsan pul qabına ki, kart yanında deyil. Deməli, nə oldu, qaldı sabaha. İşə gəlirsən, metroda baxırsan ki, vay, kart qalıb evdə. Vəssalam, dayanıb münasib bir adam tapmalısan ki, ay qardaş, ay bacı, sən Allah məni də keçir. Bu keçmək məsələsi də belədir ki, pul qabında 40 qəpik olmalıdır. Yoxsa camaatın sənə borcu yoxdur ki. İndi gəl gör ki, qəpik olmaya, manat ola, bəs nə etməli? Məcbursan ki, bu pulu xırdaladasan ki, qəpik olsun. Ay xırdalada bildin ay. Nə edəsən, bir manat verib metrodan keçməyəcəksən ki... Bir manat birgünlük yol pulundur ey... Məcbursan ki, üz tutasan evə. Kartını götürüb yenidən qayıdasan. Belə olanda isə işə və getdiyin hər yerə yubandın.

Məsələn, işə gəlirsən, bir də baxırsan ki, vay, turniket kartın yaddan çıxıb qalıb. Nə edirsən, boynunu büküb dayanırsan bir küncdə. Hə, burada vəziyyət daha fərqlidir. O mənada ki, içəridə rəhbərlik izləyir. Sənsə hələ də işdə deyilsən, turniketin yanında dayanıb, fikrə dalmısan. Burada məncə ta fikirləşməyin yeri yoxdur. Çünki artıq sən bu saatlarda işdə sayılmırsan. Kartlarla bağlı onlarla belə misallar söyləmək olar. Son qənaət isə belədir ki, əslində kart sistemi heç də pis deyil. Bəzi halda insanları süründürməçilikdən, bəzi halda rüşvətxorluqdan xilas edib, vaxtda qənaətə səbəb olub. Lakin biz müasir insanlar-kart adamlar kart sisteminə hələ də uyğunlaşa bilmirik, kartlar da gündən-günə çoxalaraq bizi bu sistem çərçivəsində boğmağa başlayıb. Nə etməli?.. Nə etməli ki, biz kart adamlar bu kartlara uyğunlaşa bilək?

Biz kart adamlar hələlikdə çox ayıq-sayıq olmalıyıq. Kartlarımızı heç vaxt evdə, işdə unutmamalıyıq. Xüsusilə qadınlar pul qablarını dəyişəndə diqqətli olmalıdırlar ki, kartların da bir-bir yerini dəyişsinlər. Hazırda kartların pul qablarına yerləşməməsi məsələsi də yəqin, nəzərə alınar və yeni pul qabları istehsal olunar ki, kartlarımızın hamısını yerləşdirə bilərik. Daha sonra isə yəqin elə bir sistem hazırlanıb həyatımıza tətbiq edilər ki, bir kart bütün kartlarımızı əvəz etmək qabiliyyətində olar, bizim də canımızı bu çoxsaylı kartlardan qurtarar. Xeyr, biz bundan sonrakı ömrümüzü kart adam olaraq başa vuracağıq. Lakin bu, daha rahat və səmərəli olar ki, bütün kartlarımız barı bir kartda toplana, vəssalam...

# Bayraqları endirən, hey-hey, bay yurdum!

## İrəvanda dalğalanan əzəmətli Azərbaycan bayrağı ermənilərin kürkünə birə saldı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ictimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



Bayraq yandırmaq adi, sıradan bir iş deyil. Mənası çox dərindir. Kin, nifrət, intiqam, qisas kimi bir çox hissləri ehtiva edir özündə. Bu günədək çox ölkənin bayrağı yandırılıb, içərisində ən çox ABŞ, İsrail üstünlük təşkil edib. Bayraq yandıranlar özlərinə məxsus şəkildə düşmənlərini aşağılayır, nifrətlərini bildirirlər. Amma ləyaqətli dövlətlər və şüurlu insanlar ən qatı düşmənlərinin belə bayraqlarına hörmətsizlik etmirlər.

### Qarabağda yenə bilmədikləri bayrağımızı yandırmaqla endirmək istədilər

Bayraq yandırmaq acizliyin, çarəsizliyin etirafıdır. Ermənistanda keçirilən Ağır atletika üzrə Avropa Çempionatının açılışı vaxtı Azərbaycan bayrağını yandıran erməni də bunun fərqindədir. O Azərbaycan bayrağının nə demək olduğunu, simvolik dəyərinin nə olduğunu biləcək yaşdadır. O bayrağımızın mənasını, yenilməzliyini, simvolik dəyərini bildiyi və həzm edə bilmədiyi üçün yandırdı. 3 rəngli Azərbaycan bayrağının o erməni ilə dolu zaldan əvvəl 30 illik işğaldan sonra Qarabağda dalğalanması onu dəli etdiyi üçün yandırdı. Yandırdığı üçün elə öz həmvətənləri də qınadılar onu. Sosial şəbəkələrdə bunun çox böyük ağılsızlıq olduğunu, dövlətin acizliyini sübut etdiyini deyən yüzlərlə erməni var.

Qarabağdakı məğlubiyyəti qəbul edə bilməyən erməni hikkəsi, kini siyasətin girmədiyi, girə bilmədiyi idmana da girdi. Bir tərəfdə siyasətlə idmanı ayrı tutmağı bacaran Azərbaycan, digər tərəfdə məğlubiyyətini qəbul edə bilməyib qalib ölkənin atributundan qisas alan Ermənistan. Bakıdakı yarışlarda ən yüksək səviyyədə qəbul edilən, qonaq edilən erməni idmançılardan sonra Ermənistana yarışa gedən azərbaycanlı idmançılara qarşı bu cür aciz etiraz üsulu və məsi Ermənistanın beynəlxalq arenada nüfuzunun yerlə-yeksan edilməsi üçün kifayət etdi.

### Gərək düşmən də mərd olsun

Bayraq bütün xalqların ortaq dəyəridir, himn kimi, gerb kimi. Düşmən də olsa Erməni bayrağına qarşı hörmətsizlik etmək bizə yaraşmaz. Doğrudur, bəzən bizdə də Ermənistan bayrağını avtomobilinin arxasına bağlayıb yerdə sürüyənlər olub, amma gərəksiz davranışdır. Prezident İlham Əliyev bu kimi davranan insanlara ən yaxşı nümunəni ölkəmizdə keçirilən Avropa Oyunlarında erməni əsilli iştirakçını mükafatlandırarkən göstərdi.

Xatırlayırsınızsa "Bakı-2015" I Avropa Oyunlarının boks yarışında gümüş medal qazanan Qevorq Manukyan mükafatlandırma mərasimində fitə basılarkən, Azərbaycan prezidenti İlham Əliyevin jesti - əli ilə azarkeşləri bu hərəkəti dayanmağa çağırması erməni mətbuatında da gündəm olmuşdu. Medalını boynuna İlham Əliyev asan idmançı da sonra verdiyi müsahibəsində Bayraq Meydanında dalğalanan bayrağımızın əzəmətindən heyrətə gəldiyini, mükafatını şəxsən Azərbaycan Prezidentindən almağının onun üçün şərəf olduğunu, azərbaycanlıların çox qonaqpərvər və mehriban olduğunu demişdi.

Bayraq əsrlərdir insanın yaşatdığı ən mühüm dəyərdir, mayaqdır, yoldur, ünvandır. Öz yoluna, bayrağına necə dəyər verirsənsə başqa dövlətlərin bayrağı da o qədər toxunulmaz olmaldır sənin üçün. Düşmənlə düşmənçiliyi də kişi kimi eləmək lazımdır. Bayrağı yandırmaqla endirmək aciz adamın işidir. Müqəddəsi, toxunulmazı, dəyəri olmayan bir erməni etirazı da ancaq bayraq yandırmaqla bildirə bilərdi. Üstəlik bayrağı yandıran həmin tədbirdə bayraqdarın əynindəki Azərbaycan bayrağı motivli geyimi yüksək qonarar müqabilində hazırlayan dizayner Aram Nikolyanın şəxsən özü idi. Pul müqabilində düşmən dedikləri ölkənin bayrağını tikən, tikiş prosesində bundan qətiyyən narahat olmayan, geyimi yarışa hazırlayan ermənin milliətçilik damarı tədbirdə bayrağımızı dalğalanarkən gördükdə tutub. Aram Nikolyan həmçinin çempionatın açılış mərasimin dizayneri olub.

Erməni mediası bayrağımızı yandıran vandal haqq qazandırmaqla məşğuldur. Aram Nikolyan isə özü verdiyi açıqlamada belə deyir: "İstədim İrəvanda Azərbaycan bayrağı dalğalanmasın, ən əsası isə heç vaxt ermənilərin situasiya ilə barışmağa çalışdıqlarını düşünməsinlər. Məni bu hərəkətimə görə qınayanlara, bunun sərhəddəki oğlanlarımıza mənfi təsir göstərəcəyini deyənlərə acıyıram. Mən Ermənistan vətəndaşı olaraq bu sərhədi qoruyan uşaqlara və o insanlara dua edirəm. "Bunu etməməliydin" deyə düşünənlər varsa, evlərində Azərbaycan bayrağını assınlar".



### Bayraq yandırmağa həbs cəzası

Məlumat üçün haşiyə çıxım, Almaniyada 2020-ci ildə qəbul edilən qərara görə, ölkə daxilində hər hansı bir ölkənin bayrağını yandırmaq Almaniya bayrağını yandırmağa bərabər tutulacaq və cəzası 3 ilədək həbs olacaq.

Dünyada ən çox bayraq yandırılan ölkələrdən olan Amerikada isə, demək olar ki, bütün etirazlarda dövlətin bayrağı yandırılırdı, həm də öz yerli vətəndaşları tərəfindən. Bayrağın hər aksiyada yandırılması narazılığa səbəb oldu və bir çox ştatlar bayrağın təhqir edilməsinə qarşı qanunlar qəbul etdilər. 1989-cu ildə Ali Məhkəmə bayraq yandırmağın qanuni etiraz forması olduğuna qərar verdi. Amerikalı siyasətçilər də fərqli düşünür, kimisi bunun normal etiraz forması olduğunu deyir, kimisi də bayrağın adi parça olmadığını, Amerika xalqının 200 il ərzində üzləşdiyi nailiyyətlərin və çətinliklərin simvolu olduğunu hesab edir. Lakin yenə də etirazçılar bayrağı yandırırdılar.

Amma 2001-ci il terror hücumlarından sonra amerikalıların bayrağa hörməti artdı. Söz azadlığı müdafiəçiləri bayrağın yandırılması qərarının zamanın sınağından çıxdığını düşünür. İş hüquqi çərçivədə həll olunsa da, bayrağın qorunması ilə bağlı siyasi müzakirələr hələ də davam edir. Statistikası aparılsa bəlkə də həm öz vətəndaşları, həm də dünyanın fərqli yerlərində Amerikaya qarşı keçirilən etiraz aksiyalarında iştirakçılar tərəfindən ən çox yandırılan bayraq Amerika bayrağı olar.

Azərbaycan bayrağı bizim müstəqillik mübarizəmiz zamanı tökülən qanların simvoludur. Şərəfdir, ləyaqətdir, bölünməz Vətən deməkdir. Vətəndən, bayrağa ehtiramdan yoxsul olanlar tarixən özgə torpağında qonaq olub. Bayrağa həqarətə imkan yaradan bir ölkə beynəlxalq ictimaiyyətdə də layiqli dərsini almalıdır.



**_Lalə Mehralı_**

# Müstəqil dövlətçiliyimizin banisi -
# Heydər Əliyev



Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqının və dövlətinin inkişafı, müstəqilliyi uğrunda əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Vətəni, xalqı qarşısında müstəsna xidmətləri ilə əbədilik qazanan Ulu Öndərin həyat yolu, zəngin və çoxşaxəli irsi əsl həyat məktəbi, tükənməz xəzinədir. Ölkəmizdə siyasi sabitliyin qorunması, hüquqi dövlət quruculuğu, müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, vətəndaş cəmiyyətinin formalaşması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində mümkün olmuşdur. Onun təkcə Vətən və xalq qarşısında deyil, həm də bəşəriyyət qarşısında xidmətləri danılmazdır. Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini qiymətləndirməyə qadir, ölkənin mədəni, təbii və iqtisadi resurslarını, potensialını, əhalinin rifah halının yaxşılaşdırılmasına və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı çox xoşbəxtdir ki, tarix ona Heydər Əliyev kimi dahi şəxsiyyət, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa bir zamanda dünyəvi, hüquqi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı bəxş etmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərlik etdiyi dövrdə əsl dövlət xadimi kimi xalqının gələcək xoşbəxtliyi üçün möhkəm təməl qoymuşdur. Keçmiş ittifaq dövlətinin rəhbərliyində yüksək vəzifə tutduğu zaman xalqın və məmləkətin şərəfini uca tutmaqla bərabər, Azərbaycanın sosial-iqtisadi inkişafı naminə hər cür fədakarlıq göstərmiş, buradakı quruculuq işlərinin davam etməsinə hərtərəfli dəstək vermişdir. Əlbəttə, Kremlin imperiya təfəkkürlü sahibləri öz parlaq zəkası ilə onları kölgədə qoyan müdrik bir azərbaycanlının paxıllığını çəkməyə bilməzdilər. Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdırmaqla xalqımıza ağır maddi-mənəvi zərbə vurdular. Sonralar üzləşdiyimiz dəhşətli bəlalar, xüsusən, təcavüzkar ermənilərin və onların himayədarlarının Azərbaycana qarşı fitnəkar niyyətləri, soydaşlarımızı öz ata-baba torpaqlarından didərgin salmaq, Qarabağı Ermənistana birləşdirmək cəhdləri də məhz Heydər Əliyevin, sözün həqiqi mənasında, siyasi-mənəvi repressiyalara məruz qaldığı dövrdə gerçəkləşdi. Lakin həyatının daim təhlükədə olduğu vaxtlarda da ümummilli liderimiz doğma xalqının harayına səs verdi. 1990-cı ildə Qorbaçov hakimiyyətinin Bakıda törətdiyi qanlı qırğına sərt etirazını bildirdi, bu cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi, daha sonra Dağlıq Qarabağ məsələsində keçmiş SSRİ rəhbərliyinin ikiüzlülüyünü ifşa edərək, Kommunist Partiyası sıralarından çıxdı. Buna baxmayaraq Ulu Öndərin ecazkar gücü və qüdrəti təşkilatçılığı ilə müstəqillik ideyaları zamanın sovet məkanında da parlaq və şəfəqlənən ideala çevrilmiş, sanki gələcək azadlıq mübarizəsinin istiqamətini müəyyənləşdirmişdir. O yaxşı bilirdi ki, milli varlığını qorumağı bacaran, ictimai şüur baxımından mütəşəkkil olan bir xalq gec-tez öz müstəqil dövlətini quracaqdır.

Müstəqilliyimizin ilk illərində ümummilli liderimizin siyasi hakimiyyətdən kənarda qalması Azərbaycanı ciddi təhlükələrlə üz-üzə qoydu ki, bunun da başlıca səbəbi səriştəsiz, şəxsi maraqlarını hər şeydən üstün tutan şəxslərin ən ali vəzifələrdə təmsil olunmaları idi. Lakin müdrik Azərbaycan xalqı baş verən hadisələrə biganə yanaşmayaraq öz liderinə qovuşmaq üçün bütün imkanları səfərbərliyə aldı.

Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı. Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı və həmin gün Azərbaycanın tarixinə "Milli Qurtuluş Günü" kimi yazıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Ölkə quruculuq və rifaha doğru addımlayırdı. Artıq xarici investisiyaların Azərbaycana təhlükəsiz axını üçün ümid körpüsü yaranmışdı. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı dünyanın diqqətini Azərbaycana yönəldə bildi və qısa zamanda ölkəmiz beynəlxalq arenada iqtisadi sistemə daxil oldu. Ölkənin taleyi ilə bağlı qəbul edilən ən mühüm qərarlardan biri Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsinə dair 1994-cü ildə imzalanan əsrin müqaviləsi olmuşdur. Bu layihədə Azərbaycanın iqtisadi potensialının səmərəli inkişafına, həm də beynəlxalq əlaqələrin, müttəfiqlərinin sayının artırılmasına nail olundu. Bakı-Tibilisi-Ceyhan neft kəmərinin açılması və bununla əlaqədar ölkənin ixracyönümlülüyünün artması iqtisadiyyatı gücləndirən vacib amillərdən oldu. Xəzər dənizinin neft və qaz resurslarından istifadə olunması dayanıqlı inkişafın bütün göstəricilərinə təsir göstərdi. Neft-qaz sektorunda həyata keçirilən çoxmilyardlı layihələr bu sahəyə bağlı olan və olmayan digər sahələrin də inkişafına təkan verdi. "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah durdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması ümummilli liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə dahi şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, ümummilli liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi.

Hər ötən il Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, parlaqlığını bir daha üzə çıxarır. Zaman Heydər Əliyevin siyasi baxışlarına yeni məna qazandırır, onun xalqımızın bu gününə və sabahına çox möhkəm bağlarla bağlı olduğunu daha yaxından göstərir. Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən dəyişikliklər və Azərbaycanın siyasi arenada nüfuzu Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun mükəmməl bir qaynaqdan - Heydər Əliyev zəkasından yoğrulduğunu bir daha sübut edir.

Bu gün Heydər Əliyevin milli dövlətçilik irsini əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin uğurları sayəsində ölkəmiz tarixinin ən qüdrətli mərhələsini yaşayır. Ulu Öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Cənab İlham Əliyev respublikamızı uğurlu inkişaf yoluna çıxarmaqla, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerjikommunikasiya layihələrinin başlıca təminatçısına çevirmişdir. Xalqa layiqli xidmət andını əməli işi ilə doğrultmuş dövlət başçısı Azərbaycanın iqtisadi inkişaf prioritetlərini dəqiq müəyyənləşdirmiş, hər bir vətəndaşın maraq və mənafeyinin yüksək səviyyədə təminatına yönəlmiş, demokratiya kursunu inamla davam etdirmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu əsər bu gün İlham Əliyev tərəfindən yüksəliş, qürurlu inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın əldə etdiyi sosial-iqtisadi, hərbi-siyasi və milli-mənəvi uğurlar istər ölkə daxilində və istərsə də beynəlxalq müstəvidə yüksək qiymətləndirilmişdir. Dövlət başçısının həyata keçirdiyi qətiyyətli və ardıcıl siyasət nəticəsində ölkənin iqtisadi və sosial infrastrukturunda yeni-yeni texnoloji nailiyyətlər qazanılmış, hətta müxtəlif təyinatlı müasir texnikalar istehsal edən qüvvətli ölkəyə çevrilmiş, beynəlxalq aləmdə söz sahibi olan lider dövlət olmuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu, milli birlik strategiyası və döyüşçülərimizin təmin edilmiş ruh yüksəkliyi nəticəsində Azərbaycan ordusu regionda ölkəmizin maraqlarına cavab verən yeni siyasi reallıq yaratmışdır. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində erməni tapdağı altında olan şəhər, qəsəbə və kəndlər işğaldan azad edilmişdir. Vətən müharibəsi günlərində dini, etnik, regional, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan xalqı Vətən naminə, Qələbə naminə Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşmişdi. Azərbaycan tarixinin 44 günlük şanlı Zəfər salnaməsinin yaradıcısı və müzəffər qəhrəmanı olan ölkə Prezidenti cənab İlham Əliyevin Ulu Öndərin siyasi-ideoloji, dövlətçilik mənafeyini uğurla davam etdirməsi bir daha bütün dünyaya göstərir ki, Heydər Əliyevin uzaqgörən siyasəti yaşayır, yaşadır və ölkəmizi parlaq, aydın gələcəyə inamla aparır.

***Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin Hesabatlar və statistik metodologiyaların əlaqələndirilməsi sektorunun müdiri Natavan Süleymanova, baş məsləhətçi Samir Quliyev, məsləhətçi İmamət İbişova***

# Fars -molla rejimi çökərsə, bəşəriyyət terrordan xilas olar

Mövcud tarixi faktlara və aparılan araşdırmalara istinadən demək olar ki, erməni terrorçuları azərbaycanlılara qarşı terror və soyqırımı aktları törədərkən daha çox xarici qüvvələrin hərbi -siyasi dəstəyinə arxalanıblar. Nəticədə 200 il ərzində 2 milyondan çox azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan yaralanmış, yüz minlərlə insan tarixi torpaqlarından didərgin salınmışlar. O zamandan ermənilərə göstərilən hərbi-siyasi dəstək bu gün də davam etməkdədir. 30 il erməni işğalı altında olmuş torpaqlarımızın yeraltı yerüstü sərvətlərinin talan edilməsində fars-molla rejimi xüsusi fəallıq göstərib. Sözdə isə Azərbaycanla dost ölkə olduğunu və dövlətimizin ərazi bütövlüyünü tanıdığını, Azərbaycan xalqının milli varlığına hörmətlə yanaşdığını bildirib. Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğal altında olan torpaqlarımızı azad etdiyi zaman fars-molla rejiminin əsl bədnam siması məlum oldu. Dərhal Azərbaycanla sərhəddə şou xarakterli hərbi təlimlər keçirdi, Ermənistanın Qafan şəhərində Baş Konsulluq açmaqla "Ermənistanın təhlükəsizliyini təmin etmək üçün buradayıq" kimi mənasız fikirləri dövriyyəyə buraxdı, baş nazir N.Paşinyanı Tehrana rəsmi səfərə dəvət edib, müəyyən separatçı sövdələşmə apardı, müqavilələr imzaladı. Bununla tərəflər baş molla Xomneinin dediyi kimi, erməni-fars xalqları arasındakı min illik qardaşlığın dərin köklər malik olduğu nümayiş etdirildi. Əmmaməli mollalar da bekar dayanmayıb Azərbaycan haqqında hədyanlar danışır, qəpik-quruşa köləlik edən TV əməkdaşlarını, mətbu orqan nümayəndələrini dövriyyə buraxıb, sərsəm fikirlər ifadə edirlər. Bəzən isə o qədər ağ yalanlar uydurulub, tirajlayırlar ki, bir növ "bişmiş toyuğun belə gülməyi gəlir". Amma unudurlar ki, fars-molla rejiminin meydan suladıqları ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Min illərdir ki, o ərazilərdə Azərbaycan oğulları hökmranlıq ediblər. Azərbaycan dili vahid və əsas dil olaraq hakimiyyətlərin başlıca dövlət dili olub. Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacarlar zamanında Azərbaycan türkcəsi elm, ədəbiyyat dili olmaqla bərabər, rəsmi dövlət səviyyəsində mühüm mövqeyə malik olmuşdur. Hətta XVI əsrin əvvəllərində əsası qoyulan vahid, mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətində (1501-1736) türk dili dövlət dili səviyyəsinə yüksəlmiş, dövlətlərarası diplomatik yazışmalarda geniş istifadə olunmuşdur. Səfəvi hökmdarı I Şah İsmayıl öz müasirləri kimi məşhur şeir və qəzəllərindən ibarət olan divanını məhz türk dilində yazmışdır. Nadir şah Əfşarın hakimiyyəti (1736-1747) dövründə də, İranda xalq arasında, sarayda və orduda Nadir şahın rəsmi yazışmalarında türk dilindən geniş istifadə edilmişdir. 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra da Azərbaycan torpaqlarında formalaşan müstəqil xanlıqlarda Azərbaycan türk dili aparıcı yer tutmuşdur. Qacarlar sülaləsinin hakimiyyəti (1791-1925) dövründə də Azərbaycan türk əsilli hökmdarlar əsas dil Azərbaycan türkcəsi olmuşdur. Bunu fars molla rejiminin elm, mədəniyyət nümayəndələri, araşdırmaçı jurnalistləri, tarixçiləri bilməmiş deyillər. İndi bunu etiraf edib, dilə gətirmirlərsə, bu, onların kar və kor olmalarından irəli gəlir. Molla rejiminin hay-küylü hərbi təlimlər keçirməklə özününü mövcudluğunu sual altına qoyur. Çünki güclü və qüdrətli Azərbaycan ordusu istənilən məqamda molla rejiminin sütunlarını məhv edə bilər. Digər tərəfdən, bu günlər Türkiyə və Azərbaycanın hərbi birləşmələrinin "Qardaş yumruğu" birgə təlimlərinin keçirilməsi ermənilərə və onların havadarlarına sərt yumruqdur, başlarına dəysə darmadağın olarlar.

### Fars - molla rejimi hər il on milyardlarla dollar terrorun maliyyələşməsinə pul ayırır

Fars-molla rejimi beynəlxalq aləm üçün təhlükə mənbəyi olduğu sübuta yetirilib. Dünyada terrorun aradan qaldırılması yalnız fars - molla rejiminin yer üzündən silinməsi ilə öz həllini tapa bilər. Bunun üçün beynəlxalq təşkilatlar, ayrı-ayrı dünyanın aparıcı dövlətləri



birləşməli və fars - molla rejiminin, eləcə də ermənizmin aradan qaldırımasına dəstək göstərməlidirlər. Fikir verin, ayrı-ayrı ölkələrdə terror aktlarının törədilməsinə 10 milyardlarla ABŞ dolları xərcləyən molla rejimi öz millətinə zülm, məşəqqət, aclıq və səfalət yaşadır. Yəni, 1979-cu ilin fevralında baş vermiş İslam İnqilabının 44 illik dönəmi xalqına heç bir xoş yaşam verməyib. 44 ildir ki, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq insanlar ağır həyat tərzi sürürlər. Bir növ rejim 44 ildir ki, xalqlar həbsxanası təsis edib və onu çox böyük vəhşiliklə "inkişaf" etdirirlər. Adi görünən qaydalardan kənara çıxan insanlar vəhşicəsinə döyülür, təhqir edilir, asılmaqla öldürülür, həbsxanalara salınmaqla zindanlarda çürüdülürlər. Zülmün, əsarətin, işgəncənin altındadır. Xüsusilə də Cənubi Azərbaycan əyalətlərində yaşayan azərbaycanlılar fars - molla rejiminin gözündə düşmən olaraq görülür. Demək olar ki, güneyli soydaşlarımız hüquqsuz vəziyyətdədirlər. Onların adət -ənənələrini, mədəniyyətlərini əlindən almağa çalışan əmmaməli mollalar bununla güneyli soydaşlarımıza qarşı düşmən xislətlərini ortaya qoymuş olurlar. Bu da səbəbsiz deyil, molla rejimi hakimiyyətə gələrkən onlara qəti etirazlarını bildirən güneyli soydaşlarımız oldu. Sərt etirazın ağır nəticəsi olaraq molla rejimi minlərlə azərbaycanlını qətlə yetirdi, on minlərlə insanı isə həbsxanalara saldı, evlərini -eşiklərini qarət etdi. Amma güneyli soydaşlarımızın mübarizə əzmini qıra bilmədi, mübarizə bu gün də davam etməkdədir.Görünən ondan ibarətdir ki, güneyli soydaşlarımız öz haqq və hüquqları uğrunda daim mübarizə aparıblar. 1905-ci il Səttərxan, Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1945-ci ildə isə Pişəvəri inqilabı baş verib. Pişəvəri hərəkatı güneyli soydaşlarımızın parlaq dövlətçiliklərini qurmaqla yekunlaşdı. Bu dövlət bir il yaşadı. Təəssüf ki, o vaxtkı SSRİ rəhbərliyinin İran rejimi ilə sıx işbirliyi milli hökumətin süqutu ilə yekubləşdı. Bir illik dövlətçilik tarixində Pişəvəri hökuməti qadınlarla kişiləri bərabər hüquqlara malik olmasına dair qanun qəbul etdi. Milli Məclis yaradıldı, Milli Ordu formalaşdı, Dövlətin bayrağı yaradıldı, demokratik seçki qanunu qəbul edildi, Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Dilimiz rəsmi dövlət dili oldu. Demokratik milli hökumət devrilsə də, ümidlər sonsuzdur ki, Güneydə müstəqil, azad dövlət yaradılacaq. Bu gün Güneydə 6 aya yaxındır ki, davam edən və bütün dünya azərbaycanlılarının dəstək verdiyi mücadilə onu deməyə əsas verir ki, bəlkə də yaxın vaxtlarda milli dövlətin yaradıldığı elan olunacaq.Mövcud reallıq ondan ibarətdir ki, fars- molla rejimi ilə erməni qardaşlığının tarixi uzun illərə gedib çıxır. Əsasən də 1991- ci ildə Azərbaycanın müstəqillik əldə etməsi molla rejiminin ölkəmizə qarşı düşmən siyasətinin daha amansız forma almasına rəvac verdi. Hər vəchlə ermənilərə hərbi-siyasi dəstək göstərməklə torpaqlarımızın işğal edilməsinə yardımçı oldu. Hətta ermənilərlə müəyyən siyasi oyunlar qurmaqla Azərbaycanın başını qarışdırmağa və bununla da ərazilərimizin zəbt edilməsinə köməklik göstərdi. Yada salmaq lazımdır ki, 1992- ci ildə Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhəddə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu. Bu, nə deməkdir? Yəni İran Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da molla rejiminin əli vardı. Sübut olunub ki, terror aktını törədən 17 nəfərdən biri "SEPAH"-ın əməkdaşıdır. Həmin terror aktını törədən şəxsləri fars - molla rejimi maneəsiz öz ərazisinə keçirdi. İşğalın davam etdiyi dövrdə molla rejimi Ermənistanı bu və ya digər formada dəstəkləyirdi. Hər gün ermənilər heç bir viza, şərt tələb olunmadan Xudafərin körpüsü vasitəsi ilə Tehrana və digər şəhərlərə gedib gəlirdilər. Bu, həm də onu göstərirdi ki, molla rejimi burada ermənilərin maraqlarını təmsil edirdi. O zaman Ermənistan Rusiya üçün İrana silah ötürməklə bağlı ən yaxşı yol hesab olunurdu. Müxtəlif silahlar, yardımları məhz Rusiya Ermənistan vasitəsi ilə Tehrana çatdırırdı.

### İslamın molla-rejiminə heç bir aidiyyəti yoxdur

Molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi ayətullah Xomeneyidir. Xomeneyidən qalma ideologiyaya görə, (bu, həm də xomeneyizm ideologiyası adlanır) müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Amma molla rejiminin indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Hazırkı prezident İbrahim Rəisi və əvvəlki terror başçıları özlərini Xomeneyinin davamçıları kimi cəmiyyətlərinə sırımağa çalıblar. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozubdur. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Yəməndə, Misirdə, Tunisdə inqilablar baş verəndə molla rejimi elan etdi ki, bu, xomeneyizm ideologiyasına əsasən İran inqilabının ixracının təntənəsidir. Molla rejimi Suriyaya qarşı münasibətdə isə əks-mövqe sərgilədi. Halbuki oxşar ssenari, oxşar proseslərdir. Deməli, lazım gələndə, siyasətdə xomeneyist də olmaq olar, başqa halda isə xomeneyzim ideologiyasının əleyhinə siyasət yürütmək də olar. Molla rejiminin ali dini rəhbərliyinin apardığı bu yanlış siyasət regionda vəziyyəti gərginləşdirməklə yanaşı, islam dünyasında da parçalanma yaratmağa xidmət edir. Bu nöqteyi-nəzərdən o qənaətə gəlmək olar ki, əgər yaxın qonşu müsəlman dövləti olan molla rejimi ikili siyasət yeridirsə, o zaman Azərbaycandan uzaq olan ərəb dövlətlərindən Ermənistana qarşı sərt mövqe sərgiləyəcəklərini gözləmək olarmı?Azərbaycanın regionun lider dövlətinə çevrilməsi beynəlxalq münasibətlər sistemində söz sahibi olması da ölkəmizə qarşı qısqanclıq hissinin yaranmasına səbəb olur. Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Bir çox müsəlman ölkələrində hakimiyyət ilə xalq arasında dərin uçurum yaranıb. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik, mövcuddur. Həm də Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqlarını azad etməsi molla rejimini, eləcə də əmmaməli mollalar kimi düşünən qüvvələri ciddi narahat edir. Bu səbəbdən də, Azərbaycana qarşı məkrli və terrorizm siyasəti aparırlar. İngiltərə, Fransa və nəhayət, Tehranda səfirliyimizə edilən xain hücumlar ölkəmizin dünyada artan nüfuzuna, gücündən və qüdrətindən narahat olmalarından irəli gəlir. Yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə edilən terror hücumu nəticəsində bir nəfər səfirlik əməkdaşı şəhid edildi, iki nəfər isə ağır yaralandı. Bu günə qədər də molla rejimi səfirliyə edilən xain hücuma düz-əməlli izahat verməyib, həm də dövlət səviyyəsində üzr istənilməyib. Azərbaycan səfirliyinin ərazisi Azərbaycan Respublikasının ərazisi sayıldığı üçün terror aksiyası, eyni zamanda, Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı qəsd kimi qəbul edilməli, sifarişçilərin və icraçıların tez bir zamanda Azərbaycan Respublikasının ədalət məhkəməsi qarşısında dayanması istiqamətində beynəlxalq müstəvidə məsələ qaldırılmalıdır. Azərbaycan səfirliyinə hücum, baş verən terror aksiyası ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət olunmalı, 1961-ci il Vyana Konvensiyasının 22, 23, 24, 25, 27, 29, 31, 37, 47-ci maddələrinin, Konsulluq münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyasının 28, 30, 31, 37, 47-ci maddələrinin, Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 4 və 7-ci maddələrinin və BMT Nizamnaməsinin 3 və 4-cü fəsillərinin 2 və 33-cü maddələrinə əsasən, molla rejiminə qarşı iddia qaldırılmalıdır. Azərbaycanın Tehrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, o cümlədən 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən terror aktı kimi pislənmişdir.Molla rejiminin beynəlxalq hüquq baxımdan üzr istəməməsi və bu azmış kimi terrorçuya müəyyən məsələlərdə himayədarlıq etməsi onu deməyə əsas verir ki, terror aktının törədilməsində mollaların rolu var. Bu isə birbaşa molla rejiminin cani və quldur bir rejim olduğunu təsdiqləyir. Söz yox ki, Azərbaycan dövləti səfirliyə qarşı törədilən terror aktının geniş şəkildə pislənməsi və terror aktını törədənlərin cəzalandırılması üçün bütün müvafiq beynəlxalq platformalardan istifadə edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tvitərdə paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıb. Paylaşımda deyilir: "Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!" Dövlət başçımız bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib.

Bir sözlə, fars- molla rejimi dünyanı terrorla təhdid etməkdədir. Bu isə onu deməyə əsas verir ki, molla rejimi nə qədər ki mövcuddur, bəşəriyyət dinclik tapmayacaq. Hər zaman dünyanın hər hansı bölgəsində fars - molla rejiminin maliyyə yardımı və hərbi dəstəyi ilə terror aktları baş verəcək. Nəticədə minlərlə insan həyatını itirəcək, şəhərlər viran olacaq. Qeyd etdiyim kimi, gözlənilən dəhşətli fəlakətlərin qarşısının alınması üçün birliyə və bərabərliyə ehtiyac var.

**İ.ƏLİYEV**

“ŞAMAXI SƏRNİŞİN” ATSC-nin 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **I** | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 25216 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 45870 |
| **2** | **Qısamüddətli aktivlər** | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 5 |
| | Cəmi qısamüddətli aktivlər | | 5 |
| | CƏMİ AKTİVLƏR | | 45875 |
| | **KAPİTAL VƏ ÖHDƏIİKLƏR** | | |
| **3** | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (76788) |
| | Cəmi kapital | | 23927 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 21948 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 21948 |
| | **Cəmi öhdəliklər:** | | 21948 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 45875 |

“ŞAMAXI SƏRNİŞİN” ATSC-nin 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ TƏSƏRRÜFA MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 11390 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 11390 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 7200 |
| 2. | DSMF-yə ayrım | 1764 |
| 3. | Vergi ödəmələri | 1103 |
| 4. | Amortizasiya xərcləri | 2088 |
| 5 | Sair xərclər | 2712 |
| | Cəmi xərc: | 14867 |
| | Əsas fəaliyyətin məticəsi -Ziyan | 3477 |
| | Ümumi nəticə -Ziyan | 3477 |

“Şamaxı Sərnişin” ATSC-nin
idarə heyyətinin sədri: Nəhmətov M.Ə.

# “Nar”ın dəstəyi ilə ”Breyn Rinq”in 21-ci mövsümü davam edir

“Nar”ın dəstəyi ilə keçirilən ”Breyn Rinq” bilik yarışının 21-ci mövsümü başlayıb. Yeni mövsümdə 9 region və 7 universiteti təmsil edən 20 komandanın iştirak etdiyi yarışı hər həftənin bazar günü saat 18:20-də İctimai Televiziyada yayımlanacaq. Bu mövsümdən tətbiq edilən yeni qaydalara görə, həftənin qalibləri ayın final görüşündə üzüzə gələcəklər. Ümumilikdə isə ayın qalibləri ”Nar” kuboku uğurunda mübarizəyə qoşula biləcək. İlin sonunda isə ”Bilik” kuboku və ”Nar” kubokunun qalibləri, yəni 2 komanda Azərbaycan çempionu titulu uğrunda yarışır.




Qeyd edək ki, ölkənin intellektual inkişafına dəstəyinin ifadəsi olaraq, ”Nar” artıq 11 ildir ki, ”Breyn Rinq” yarışını dəstəkləməyə davam edir. Mobil operatorun dəstəklədiyi digər sosial layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Bayraq, əsgər və başıpozuqlar ölkəsi

Ermənistan və ermənilər bataqlıqda canı ilə əlləşən birisini xatırladır. Tərpəndikcə bataqlıq onları daha dərinə aparır. Əsgər məsələsində yerli sakinlər bir, Ermənistanın baş naziri başqa, spiker isə tam fərqli bir söz deyir. Bilmək olmur dumana düşərək yolu azan və Ermənistan ərazisində ələ keçirilən iki əsgərimiz haqda niyə bu qədər fərqli izahatlar var? Bu sualın cavabını da elə ermənilər verir. Bu hadisədən hərə öz xeyrinə çıxarlar əldə etməyə çalışır. Bu ölkənin ikinci şəxsi, spiker Alen Simonyanın əsgərimizi tələm-tələsik hansısa cinayətdə suçlaması daha dəhşətli mənzərə yaradır. Bir sözlə, Ermənistanda it izi at izinə qarışıb.



Bayrağımızın yandırılmasına gəlincə, bu, daha çox sülhə xidmət etməli olan idman yarışının imicinə ağır zərbədir. Bu hadisəni 1972-ci il Almaniyanın Münhen şəhərində keçirilən Yay Olimpiya Oyunları zamanı ”Qara sentyabr” təşkilatının üzvləri tərəfindən törədilmiş terror aktı ilə müqayisə etmək olar. İsrailin Olimpiya millisinin 11 üzvünün girov götürüldüyü hadisə, terrorçuların, girovların və bir polis əməkdaşının ölümü ilə nəticələnmişdi. Hadisədən qısa müddət sonra terrorçular İsraildə həbs olunmuş 234 nəfərin və Qırmızı Ordu Fraksiyası banilərinin buraxılmasını tələb etmişdilər. Özünü sekulyar millətçi olaraq təqdim edən və hücumun əsas təşkilatçılarından olan Lutif Afif xristian köklərə sahib bir ailədə dünyaya gəlmişdi. Alman neo-nasistlərin terror aktının törədilməsində, terrorçulara lojistik dəstək verdikləri də məlumdur.

İrəvanda baş verənlər də 1972-ci il qətliamının təkrarlana biləcəyinə bir işarə idi. Ermənistanın paytaxtında baş verən hadisə başqa məcraya da yönəldilə bilərdi. Əgər Ermənistan rəsmilərinin dediyi kimi, təhlükəsizlik tədbirləri görülmüşdüsə, bəs onda tamaşaçıların, rəsmi və qeyri-rəsmi şəxslərin, yüzlərlə idmançının, polisin, DTX əməkdaşlarının, təşkilatçıların, Ermənistanın baş nazirinin gözü qarşısında bu hadisə necə baş verə bildi? Həm də terror aktı Nikol Paşinyanın zövcəsi Anna Akopyanın ”boy frend”I tərəfindən. Annanın dostu fürsətdən yararlanıb bizim idmançılara atəş də aça bilərdi.

Hadisənin ən diqqətçəkən məqamı isə İrəvan polisinin qərarı və paytaxt sakinlərinin reaksiyasıdır. Polis sanki heç bir hadisə olmamış kimi, Nikolyanı azad etdi və əlini onun kürəyinə çəkməyi də unutmadı. Sakinlər isə onunla həmrəy olduqlarını əyani, həm də nümayişkəranə şəkildə göstərdilər. Bu millət terrora ”hə” dedi və kim olduğunu təsdiq etdi. Ermənistanın idman nazirinin müavini Karen Giloyanın açıqlaması da erməni mahiyyətindən, xislətindən xəbər verir. Giloyan hadisəni elə ”xırdalayır” ki, sanki oyunda hansısa hakim səhvi baş verib, kiminsə balını aşağı göstəriblər.

Giloyanın açıqlaması: ”Ermənistanda Azərbaycanın qəbul etdiyi qərar idman etikası baxımından narahatlıq doğurur, çünki İrəvan bütün təhlükəsizlik standartlarına əməl olunmasını təmin edib və İrəvana gələn idmançılar üçün heç bir problem yaranmayıb. Hadisə çox tez həll edilib və bunu təhlükəsizlik zəmanəti ilə heç bir əlaqəsi yoxdur. Onların yarışlarda iştirakı üçün bütün lazımi şərait tam təmin edilib”.

Əslində, nazir müavininin açıqlamasına təəccüblənmək olmur. Çünki bütün bu baş verənlər və buna münasibət bir millətin epidemiya həddində olan xəstəliyidir. Yəqin ki, bu yaxınlarda Laçın yolunda baş verən hadisəni xatırladınız. Erməni əsilli qadınlara ilk tibbi yardım göstərən həkimlərimiz onları Xankəndiyə qədər müşayiət etmişdilər. Əsl mərəkə də bundan sonra başlamışdı, azərbaycanlıların xoşməramlı jesti Ermənistanın bəzi dairələrini, xüsusən də tipik erməni xislətində olanları bərk narahat etmişdi və mətbuatda qaldırdıqları tozanaq da bu səbəbdən idi. Hətta, bu qarmaşa ilə daim bizim əleyhimizə olan bəzi beynəlxalq təşkilatları da şoka sala bilmişdilər. Laçın yolunda keçirilən etiraz aksiyasının əsl mahiyyətini bir kənara qoyub, guya ekoaktivistlərin yolu bağladıqlarını, Qarabağdakı ermənilərə humanitar krizis yaşatdıqlarını bəhanə edərək Azərbaycana sanksiya tətbiq olunmasına çalışırdılar. Yəni, olmayan hadisədən şou düzəltmək və Azərbaycana təzyiqləri artırmaq.

Ermənistanda isə hakimiyyətə müxalif olan bir qrup ekspert baş verənlərə fərqli tərəfdən yanaşmaqla Paşinyanı tam olaraq ifşa ediblər. Onların qənaətinə görə, hakimiyyətə şounun davam etməsi və xalqın Ermənistanın mövcudluğunu təhdid edən əsl dəhşətli proseslərdən yayındırılması lazımdır. Ekspertlər getdikcə daha çox əmin olurlar ki, baş verənlər əvvəlcədən planlaşdırılmış və düşünülmüş təxribatdır. Stilistik studiyanın rəhbəri Aram Nikolyan barədə hər cür ifadə işlətmək olar, amma o, qətiyyən axmaq deyil. Nikolyan Nikol Paşinyana və Anna Akopyana yaxın, onların dediyini yerinə yetirən personajdır. Bəli, söhbət Azərbaycan bayrağının yandırılmasından gedir.

Baş verənlər erməniləri keçmişdə yaşananlardan dərs çıxarmanı xatırlamağa vadar edən faktdır. Bayraq yandırmaq və əsgərə qarşı vəhşi hərəkətlər daha çox kimə sərf edir? Bunun şəxsən Nikol Paşinyan üçün faydalı olduğuna şübhə yoxdur. Nə üçün? Cavab sadədir - ictimai müzakirəni tamam başqa istiqamətə köçürmək. Dərinliyini cəmiyyətdən gizlətməyə çalışdıqları çox mühüm problemdən yayındırmaq.

Söhbət həm də Azərbaycan-Ermənistan sərhədində baş verənlərdən gedir. Cəmiyyət Dığ (Tex) kəndi yaxınlığında erməni ordusunun təxribatından sonra başlanan qısamüddətli döyüşdə bütün mənalarda itirilənlərin cavabını Paşinyandan sorur. Ağır məğlubiyyətin isə cavabı yoxdur. Ona görə də idman yarışında baş verənlərin hakimiyyət tərəfindən sifariş edildiyini qətiyyətlə söyləmək olar.

Əsgərlərin yolu azmaları və Ermənistan ərazisinə keçmələri də Paşinyan üçün göydəndüşmə olub. Hadisənin baş nazirə hansı dividentlər qazandıracağını hələlik bilmirik, amma əsgərlərə qarşı ermənilərin törətdiyi vəhşiliklər bu ölkəyə də, onun hərdəmxəyal baş nazirinə də yaxşı heç nə vəd etmir. Bəs 44 günlük müharibədən sonra diversiya törətmək məqsədilə Azərbaycan ərazisinə keçən və silahlı qüvvələrimiz tərəfindən ələ keçirilən erməni hərbçilərin valideynlərinə, onların yaxınlarına Paşinyan nə cavab verəcək? Bu, artıq gələn məqaləmizin mövzusudur.

***V.VƏLİYEV***

# Toy və yas adətlərinə pandemiyadan sonra BAXIŞ

ARAŞDIRMA

**Bir çoxumuza məlumdur ki, pandemiya bütün həyatımızı birdən-birə dəyişdi. Belə ki, gündəlik vərdişlərimizlə yanaşı toy və yas mərasimlərində də dəyişiklik müşahidə olunur. İndi insanlar yas və toy mərasimlərini daha yığcam edir. Bu mərasimlər ailəiçi və çox kiçik şəkildə təşkil olunur. Bəs, buna səbəb nədir? Pandemiya toy və yas adətlərimizi məhv edib?**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bütün sevdikləriniz və tanıdıqlarınızla birlikdə böyük bir toy etmək fikri mükəmməl görünə bilər. Hətta bu bir çoxunun xəyalıdır. Amma bu gözəl xəyalın arxasında bir çox bəlalar dayanır. Kiçik toylar sadə olsa da,







100-150 nəfərlik toy təşkil etmək daha rahat və stressiz olacaq.

Kiçik bir toy etməyin üstünlükləri bunlardır:

## Büdcə rahatlığı

Nə qədər çox insan varsa, xərc də bir o qədər çox olur. İnsanların sayı artdıqca məkanın, süfrənin, yeməklərin, bəzək əşyalarının və bir çox digər detalların qiyməti də artır. Yəni, sadə toy sizi yalnız lazımsız xərclərdən xilas edəcək. Toydan qalan pulla evinizi və ya bal ayınızı istədiyiniz kimi təşkil edə bilərsiniz.

## Məkan tapmaq

İnsanların sayı az olanda şadlıq evləri-



nin seçimləri artır. 500 və ya daha çox adam yerləşdirə biləcəyiniz məhdud məkan seçimləri var, lakin demək olar ki, istədiyiniz məkanda 100-150 nəfərlik toy keçirə bilərsiniz.

## Əyləşmə planı

500 nəfərlik oturma planı hazırlamağın çətinliyini təsəvvür edə bilirsiniz? 150 nəfərin iştirak etdiyi toyda hər kəs bəylə gəlini rahat görə biləcəyi rəqs meydançasına yaxın əyləşə bilər. Siz həmçinin müxtəlif masa formaları edə bilərsiniz.

## Asan təşkilat

Toy təşkil etmək özlüyündə bir hadisədir. Yəni, toy nə qədər böyükdürsə, təşkili də bir o qədər çətindir. Dəvətlər, toylar, qonaqların qarşılanması, yeməklər dedikdə, izdihamlı bir toyda ən vacib gününüzü stresli keçirəcəksiniz.

## Səmimi atmosfer

Tanımadığınız yaxınlarınız və ya iş yoldaşlarınız əvəzinə tanıdığınız və sevdiyiniz insanlarla paylaşdığınız bu mühüm gün sizin üçün daha gözəl və unudulmaz olacaq. Unutmayın, ən xoşbəxt gününüzü sizi yaxından tanıyan və sizdən razı olan insanlarla bölüşmək daha dəyərlidir.

## Stressiz

Büdcə, oturma planı, dəvətləri düşünərək toy günü stress yaşaya bilərsiniz. Toy böyüdükcə bu stress də artır. Bu səbəbdən kiçik toylar daha az təfərrüatlıdır və təşkili daha asandır.

Əvvəllər kəndlərdə üç gün toy olarmış. Mərasimə yığışan hər kəs yeni evlənənlərin şəninə təriflər deyir, ürək sözlərini söyləyir və şənlənərdilər. Həmçinin, toy günü bəylə gəlinin nikaha girməsi vacib idi. İndi isə cütlüklər toydan bir neçə ay əvvəl və hətta bir neçə ay sonra rəsmi nikah edirlər.

Əvvəllər bəyin yanında sağdışı ilə soldışı otururdu. Oğul anası onlara hədiyyə verərdi. Bəy toy məğarına gecikəndə kim onun yerində otursa hədiyyə alardı. Bəyi və ya gəlini öz toyunda oynadırlar. Deyilənə görə, bəy və ya gəlin öz toyunda oynayanda bolluq və ucuzluq olardı.

Günümüzdə isə bu toylardan o qədər də əsər-əlamət qalmayıb. İndi ailələr çalışır ki, xərcə düşməmək üçün ayrı qız və oğlan toyu etmək əvəzinə bir toy etsinlər. Məsələn, bu ailələr əvvəldən qohum olduqda məntiqli



variant kimi görünə bilər. Çünki bu insanlar zatən əvvəldən qohumdur və qohum olduqları üçün də onların toyuna 90 faiz eyni adamlar dəvət olunacaq. Yalnız tamamilə iki yad ailənin bu addımı atması daha çox artıq xərc yaranmasın deyədir.

Bütün bunlar hal-hazırda yas mərasimlərinə də aiddir. İndi yas mərasimləri də demək olar ki, dəyişib. Belə ki, artıq əksər ailələr 40 və il mərasimlərinə o qədər də önəm vermir. Yaxud bu mərasimlərə kimisə dəvət etməkdənsə, ailə içi öz yaxınları ilə birlikdə olmağa üstünlük verirlər.

"Qırx"la bağlı müxtəlif dünyagörüşlərinin münasibətlərindən asılı olmayaraq, müsəlman aləmində bu matəm günü əvvəlkilərdən daha geniş miqyasda qeyd olunurdu. Matəmin bu gününə dəfn günündə iştirak edənlər dəvət olunur. İştirakçılar isə həmin gün yasa getməklə mərhuma olan son borclarını vermiş hesab olunurlar. Azərbaycanın şimal-şərq bölgəsi yas mərasimləri ilə bağlı tədbirlər içərisində "əlli ikinci" günün qeyd olunması xüsusi yer tutur. Bu günün keçirilməsi yas sahiblərinin imkanlarından asılıdır. İmkansız ailələrdə bu gün ya heç keçirilmir, ya da yüngül qeyd olunur.

**Yazıçı-kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov:** "Azərbaycan xalqının keçdiyi sivilizasiya yolu var və bu yolda özü üçün mental və mədəniyyət dəyərləri, toy mədəniyyəti var ki, bu onu digər xalqlardan fərqləndirir. Azərbaycan toylarının təmtəraqlı olması, qız bəyənməkdən tutmuş oğlan toyuna qədər bir sıra proseslər var. Bütün bunlar mərasimlər sistemi olaraq Azərbaycan toylarının özəlliyidir. Təəssüflər olsun ki, həm sürət əsrində yaşadığımıza görə, toyun özü də islah olduğuna görə bunların bir çoxu ixtisar edilib. Bəzən bir toyla nişan və xınayaxdı da edirlər.

Toyların özəlliyi biznesin bir növünə çevrilib. Məsələn, cehizlik və qızıl satışı, bərbərxanalar, gözəllik salonları, paltar tikimi, aşpazlıq, musiqiçilər, fotoqraflar və s. Bunlar hamısı iş yeri deməkdir. Bütün bun-



lar Azərbaycan toyunun gözəlliyini və özünəməxsusluğunu nümayiş etdirir. 600-700 nəfərlə keçirilən toylar o vaxtlar çox məşhur idi. Hər evdən 3-4 nəfər eyni toya gəlirdi. İndi isə toylarda uşaq çox az olur. Hətta əksər ailə ümumiyyətlə toya uşaq aparmır.

Toyla bağlı müəyyən dəyişiklikləri normal qarşılamaq lazımdır. Pandemiya işsizlik, iqtisadi eniş, insanların hər bir hadisəyə olduğu kimi toya da münasibətinin dəyişməsi, ekonomik minimalizm şərtləri ilə toy etməsini normal qarşılamalıyıq.

Yeni nəsil minimalist baxışları və ekonomik düşüncəsi ikə toyları 50-100 nəfər arasında keçirmək istəyir. Onlar böyük toya çəkdikləri xərcə sadə toy edib özlərinə ev alırlar, yaxud istirahətə yollanırlar.

Daha mobil məsrəfləri biz ziyalılar daim təklif edirdik. İndi yaslarla da ənənələr artıq yaddan çıxıb. Toy kimi, yasda da çadır qurulmur. Sadə bir ehsan verilir və mərhum yad edilir. Bu normal haldır. Çünki həddindən artıq məsrəfli işlər dünyanın heç yerində qəbul edilmir".

***Ayşən Vəli***

# "Təxribatlar Ermənistanın sülh prosesindən uzaq olduğunu göstərir"



"Aprelin 11-də ermənilərin törətdiyi təxribat əvvəlcədən planlaşdırılmışdı. Hesab edirəm ki, bu təxribat Sankt-Peterburqda MDB Parlament Assambleyasının iclası ərəfəsində planlaşdırılması Ermənistanın sülh prosesindən uzaq olduğunu göstərir. Ümumiyyətlə, yolu azmış iki hərbçimizin əsir götürməsi və onlara işgəncələr verərək çəkiliş edib sosial şəbəkələrdə yayması, İrəvanda keçirilən Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasiminə gətirilən Azərbaycan bayrağının yandırılması, yarışlarda iştirak edən ölkələrin bayrağları arasında asılmış Azərbaycan və Türkiyə bayraqlarını cırıb atılması yeni-yeni təxribat və vandalizm hərəkətlərdir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, bütün bu təxribatlar Ermənistanın sülh prosesindən uzaq olduğunu göstərir: "Ermənilərin içində azərofobiya, türkfobiya, düşmənçilik hədsiz dərəcədə çoxdur. Onlar ancaq başından dəmir yumruq dəyəndə sakitləşirlər və müəyyən müddətə səslərini çıxartmırlar. Təbii ki, düşmənin hər bir təxribatının qarşısı çox ciddi şəkildə alınır. Ermənistan elə bilir ki, təxribatlar törətməklə sülh müqaviləsi imzalamadan prosesi dondura biləcəkdir. Belə təxribatlar ancaq Ermənistanı məhv edir, inkişafdan geri salır və dünyada özünü biabır edir. Azərbaycan öz ərazi bütövlüyünü təmin etmişdir və Ermənistanın istəyib-istəməməsindən asılı olmayaraq öz sərhədlərini yavaş-yavaş möhkəmləndirir, yarımçıq qalmış məsələləri yoluna qoyur. Qarabağda yerləşdirilmiş sülhməramlılar da zaman yetişəndə çıxarılacaq, separatçıların əlindəki silah-sursat da yığışdırılacaq və Ermənistanla sərhədimizə nəzarətimizi tam şəkildə bərpa edilərək təhlükəsizlik təmin ediləcəkdir. Dalanda qalan isə Ermənistan olacaqdır".

***GÜLYANƏ***

# Pasxa bayramı nədir?





***Pasxa xristianlığın ən qədim və ən mühüm mədəniyyət günlərindən biridir. Aprel ayına az qalmış, bu il Pasxa bayramının nə vaxt qeyd olunacağı sual altına alınmağa başladı. Qeyd edək ki, həmyerlilərimiz içində də bu bayramı qeyd edənlərin sayı az deyil. Bəs, bu nə dərəcədə düzgündür?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Pasxa bu, İsanın özünü bəşəriyyətin günahı üçün qurban verərək çarmıxda öldürüldüyü və sonra dirildiyi inancının xatırlanmasını təmsil edir. İsanın dirilməsi çarmıxa çəkildikdən sonra 3-cü gündə qeyd olunur. Şərq və Qərb kilsələri arasında fərqlər olsa da, Pasxa dövrü təxminən martın sonundan aprelin sonuna qədərdir. 2023-cü ildə Pasxa 9 aprel tarixinə təsadüf edib.

Pasxa ənənələri hansılardır?

Pasxa bütün xristianlar tərəfindən qeyd olunur. Kilsələrdə, adətən, keçirilən ayinlərdən başqa, qeyd olunduğu ölkəyə görə müxtəlif adət-ənənələr mövcuddur. Bunlardan ən çox yayılmışı Pasxa dovşanı və adətən, şokoladdan hazırlanan Pasxa yumurtalarının bir-birinə hədiyyə edilməsidir. Pasxa günü üçün evdə xüsusi çörəklər (Pasxa çörəkləri) hazırlanır, qaynadılmış yumurtalar boyanır, şamlar yandırılır və dualar oxunur.

Katolik kilsələrində yeni atəş Pasxa gecəsində təqdis olunur, Pasxa şamı yandırılır. Müqəddəs Kitabdan parçalar oxunur və vəftiz mərasimləri keçirilir. Xristianlığın başlanğıcında vəftiz mərasimləri ildə yalnız bir dəfə, Pasxa günü keçirilirdi. Yunan və Rus Pravoslav Kilsələrində gecə ibadətindən əvvəl kilsədən kənarda yürüş keçirilir. Kortej kilsəni tərk edərkən heç bir işıq yandırılmır; geri dönərkən İsanın dirilməsini simvolizə etmək üçün yüzlərlə şam yandırılır.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Dürdanə Rəhimzadə: "Pasxanın xristian dinində İsanın çarmıxa çəkiləndən sonra dirilməsinin qeyd edilməsi günü olduğu çoxumuza bəllidir. Tarixən bir çox bayramlar, əlaqədar olduğu hadisənin əksəriyyət tərəfindən unudulmasına baxmayaraq, böyük kütlələr tərəfindən qeyd olunur. Hətta bəzən qeyd edənlərin əksəriyyəti bunun kökündə nələrin durduğunu bilmir.



Pasxa müəyyən müddət ərzində yüngül qidalanmanı və bu dövr bitdikdən sonra müxtəlif ayinlərin həyata keçməsi və şirniyyatların bişirilməsi, yumurta boyanması və s. ilə qeyd olunur.

Bizim Rusiyada yaşayan həmyerlilərimizin bu bayramı qeyd etməsi, düşünürəm ki, dini ayinlərin həyata keçməsi ilə deyil, bayramın daha çox ikinci hissəsi, yəni müxtəlif şirniyyat növlərinin bişirilərək yeyilməsi, daha dəqiq desək, eyni mühitdə yaşadıqları insanlara qoşularaq onların bayramlarının onlarla birlikdə qeyd edilməsi ilə bağlıdır. Yeni təamların dadına baxmaq, onların bişirilməsini öyrənmək, qonşularla bayramlaşmaq və s. Bütün bunlar, əslində, sevinmək üçün bir səbəb, bir bəhanədir.

Qeyd etmək istərdim ki, bizim ölkəmizdə də bu bayramı simvolizə edən şirniyyatların mağazalarda satışının və insanlarımızın da bunları məmnuniyyətlə almasının şahidi oluruq. Bəziləri hətta evdə özləri bişirirlər. Nəticə etibarilə bu prosesi mən insanların, dini inancından və əqidəsindən asılı olmayaraq, sevinmək üçün bir bəhanəsi kimi qəbul edirəm".

***Ayşən Vəli***



**Təhmasib Novruzov**

# Dünya sizin..., dünya bizim..., dünya yaradanın!..

Kifayət qədər ömür yaşamışam. Həm də bu ömürü elə təlatümlü, elə keşməkeşli bir dövrdə yaşamışam ki, er, erməni kimi şeytan torunun içində çabalamağa hələ də davam etməyimizə rəğmən, özümdən asılı olmayaraq anamız Yer kürəsində baş verən hər hansı hadisəyə soyuqqanlı yanaşa bilmirəm. Oturub yaşadığım ömürü saf-çürük edib, bu gün baş verənlərlə müqayisə aparıb, təhlil süzgəcindən keçirdikcə böyük Məmməd Arazın tarixi misralarını xatırlayır və sual edirəm: axı dünya kimin?..

Mən fanatik dindar deyiləm. Əlhəmdüllah, müsəlmanam, allahımı da, onun yer üzünə göndərdiyi elçilərini də, sonuncu rəsulallah Həzrət Məhəmmədi (s.s.) də tanıyır və biət edirəm. Dini baxışımın ən dərin qatında olan inanc fəlsəfəm isə kainatın, yaşadığımız planetin, bu planetin və bəlkə də bütün kainatın ən möhtəşəm yaranmışlarından olan insanın, ağılllara sığması və dərk edilməsi mümkün olmayan yaradılışı və yaşadılışı, idarə olunması möcüzəsindən qaynaqlanır. Yəni bu qədər möcüzələrlə dolu bir varlığın özbaşına yaranmasının mümkün olmaması düçüncəsini qəbul edir, onun hansısa qüdrət tərəfindən yaradıldığını və idarə edildiyini qeyd-çərtsiz qəbul edirəm. Və bütün bu düşüncələrim fonunda qeyri-ixtiyari sual verirəm: əcəba hər kəsi, hər şeyi, bütün dünyanı, kainatı yaradan və bu kainatda insan adlanan möcüzəli bir varlıq xəlq edən rəbbin qüdrətinəmi şübhələr edir indiki böyük güc mərkəzləri. Axı rəbbim zaman-zaman Yer üzünə göndərdiyi rəsulları vasitəsilə "necə yaşamalı" sualının bütün cavablarını bizlərə, ümumən insanlara aşkar mesajlarla göndərib!

Dünya tarixinin böyük düşüncə sahibi, rəbbin özündən ilham alaraq bədii-fəlsəfi poetikası ilə bəşəriyyəti yaradanın möcüzələrindən agah olmağa səsləyən Şeyx Nizami Gəncəvinin "İsgəndərnamə"sindəki ziyafət səhnəsini xatırlayaq. Dünyanı zəbt edən Makedonuyalı İsgəndərə ziyafət verən Bərdə hökmdarı Nüşabənin yemək süfrəsində qızıl, zınət əşyalarını düzdürməsi, İsgəndərin təəccübünü görüb də, "Yeyilməz, içilməz böylə daş üçün, bu qədər vuruşmaq, çarpışmaq neçin?" sualı ilə müraciət etməsi, Nüşabənin, Şeyx Nizaminin deyil, tanrının güclü olanlara ilahi mesajı kimi qəbul edilməlidir. Nə yazıqlar ki, Misir fironlarından başlamış bu günümüzə qədər planetrimizin məhsullarından istifadə edib də, gücünü, qüdrətini artıran iblis qanlı insanabənzərlər, hələ də dünyamızı da, kainatı da özünün hesab etməkdə davam edirlər. Ona da yazıqlar ki, bu məxluqlar dönüb keçmişə baxa, fironların da, onlardan sonra yer üzünə gəlib-gedən minlərlə özünü yaradana bənzər tutanların da aqibətini görməzdən gəlməkdə davam edir, dünyanı özlərinin hesab etmək kimi təhlükəli və yaradana xoş olmayan bir xəstəlikdən xilas ola bilmirlər. "Qloballaşma" adı altında yeni formada "qutbləşmə" siyasəti yürüdənlər hələ də anlamırlarmı ki, onların bu iyrənc oyunlarından kimlərsə baş çıxarmaqda çətinlik çəksələr də, yaradan qüdrət bütün bunları görür və izləyir? Axı sonuncu ilahi kitab olan "Qurani-Kərim"də yaradan mesaj verib insanlığa ki, sizə bütün yaranmışlardan fərqli olaraq şüur əta elədim, vay o kəslərin halına ki, əta elədiyim bu nemətdən pis əməllər üçün istifadə edir. Bu kəlamın mənasını anlamayıb da, dünyanı özününkü hesab edib, "demokratiya", "qloballaşma", "haqq", "ədalət" və sair kimi göz oxşayan ifadələr altında rəbbin bəxşlərini sağa-sola işlədib, rəbbin yaratdığına sahib çıxmaq istəyənlər nə zaman gerçək haqqa dönüş edəcəklər?

Təkcə bizim kiçik bölgəmizdə erməni ünsürlərinə qondarma layihə-dövlət qurub, onu toy toğlusu kimi ortaya atıb regiona sahib çıxmaq istəyənlər, insanlığın gözləri qarşısında bu iblis xislətlilərin törətdikləri qan qoxulu əməlləri görməzdən gəlib də, haqqdan, ədalətdən dəm vururlarsa, burda ədalətin sadəcə formal səsləndiyini deməyə tam əsasımız var. Başqa regionlarda da "ədalət"i bu cür qoruyan dünya gücləri anamız Yer kürəsini məhvə sürükləməkdə davam edirlərsə, təsəvvür edin dünya nə gündədi! Məşhur bir hekayətdə, ustadının şagirdlərinə "sabah hərəniz bir toyuq gətirin, amma elə edin ki, görən olmasın" tapşırığına , "hara getdimsə hiss etdim ki, allah görür, ona görə toyuq gətirmədim" deyən şagird qədər ağıl yoxmu dünyaya sahib olmaq üçün dünyanı məhvə sürükləyənlərdə? Dünyanın sahibi kim olduğunu hələ də dərk etməyib, dünyaya sahib olmaq istəyənlər, sonda onun gerçək sahibinin qəzəbinə gələcəklərini düşünməlidirlər. Yəni, dünya nə sizindi, nə bizim, nə də heç kimin.

Dünya onu yaradanındı. Sizlər də, bizlər də hərəmiz öz ağlımızın kəsdiyi, qabiliyyət və bacarığımızın yetdiyi həddə qədər bu dünyadan yararlana bilərik, onun nemətlərindən istifadə edə bilərik, amma onun sahibinin haqqına girə bilmərik. Çünki onun qüdrətinə yetəcək bir qüdrət olmayıb, yoxdu və heç zaman da olmayacaq. Bir məşhur Azərbaycan mahnısından iki beyti, bir hərf dəyişməklə xatırladıb, fikrimi tamamlamaq istəyirəm:

Ata qəlbim odlanır, söz düşəndə davadan,
Bəs deyilmi, ey insanlar, töküldü qan, axdı qan?
...Silahları yandırın, ərşə qalxsın tüstüsü,
Yer üzündə qanad açsın insanların sülh sözü!

# Azərbaycan regionun kosmik mərkəzinə çevrilib

**2023-cü ilin oktyabrında ölkədə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək zaman baş tutacaq. Belə bir yüksək səviyyəli tədbirin Bakıda keçirilməsi heç də təsadüfi deyil, çünki Azərbaycan 2018-ci ildə 3-cü peykini orbitə çıxarmaqla dünya kosmik klubunun üzvü statusunu təmin edib. Azərbaycan Respublikası Milli Kosmik Agentliyinin İdarə Heyətinin sədri Saməddin Əsədov ”Moskva-Baku” portalına müsahibəsində Azərbaycanda kosmik sənayenin inkişafı və ölkənin qarşıdan gələn beynəlxalq konqresə necə hazırlaşmasından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- 2008-ci ildə Prezident İlham Əliyev "Azərbaycanda kosmik sənayenin yaradılması və süni telekommunikasiya peykinin orbitə çıxarılması" vəzifəsini qoydu. Son 15 il ərzində hansı işlər görülüb?***



- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi, sosial və siyasi islahatlar sayəsində Azərbaycan XXI əsrdə böyük yol keçib. Ölkəmizdə texnoloji inkişafın təmin edilməsi istiqamətində bir sıra irimiqyaslı layihələrin həyata keçirilməsi ilə müşayiət olunan bu dövr həm də Azərbaycanda kosmik sənayenin formalaşması və inkişafı ilə əlamətdar olmuşdur. 2008-ci ildə ölkə Prezidenti tərəfindən təsdiq edilmiş ”Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq respublikada müasir kosmik layihələrin həyata keçirilməsinə başlanılmışdır. 2010-cu il mayın 3-də Azərbaycan Prezidentinin sərəncamı ilə ”Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti yaradılıb. 27 aprel 2021-ci il tarixində ”Azərkosmos” ASC Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kosmik Agentliyinə çevrildi.

Ölkəmizin kosmik sənayenin inkişafına başladığı son onilliyin əvvəlində ölkə rəhbərliyi mühüm strateji qərar qəbul etdi ki, bu da gələcək inkişafın prioritetlərini və strategiyasını müəyyən etməyə imkan verdi. Kosmik sənayedəki tendensiyaları müşahidə edərək və milli potensialı qiymətləndirərək, biz fundamental kosmik tədqiqatlardan başlamaqdansa, peyk xidmətlərinin inkişafı və göstərilməsi yolunu tutmuşuq. Peykin orbitə çıxarılması ilə ”Azərkosmos” Qafqaz regionunda yeganə peyk rabitəsi operatoruna çevrildi.

Azərbaycanın ilk telekommunikasiya peyki ”Azerspace-1” 2013-cü il fevralın 8-də Fransa Qvianasındakı Kuru kosmodromundan orbitə buraxılıb və 46 dərəcə şərq uzunluğunda geostasionar mövqedə yerləşir. Hazırda bu peyk vasitəsilə Azərbaycan, türk, rus, ingilis və digər dillərdə 100-ə yaxın yerli və beynəlxalq televiziya və radio kanalı yayımlanır. ”Azerspace-1” peyki Avropa, Afrika, Mərkəzi Asiya, Yaxın Şərq və Qafqazdakı müştərilər üçün yüksək etibarlı, genişzolaqlı və yayım həlləri təqdim edir.

İkinci telekommunikasiya peyki ”Azerspace-2” 45 dərəcə şərq uzunluğunun geostasionar mövqeyində yerləşir. O, 2018-ci ildə orbitə buraxılıb və Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və tropik Afrika ölkələrini əhatə edir. ”Azerspace-2” telekommunikasiya yayımının genişləndirilməsi üçün imkanlar təqdim edir, həmçinin davamlı ehtiyat resurs rolunu oynayır.

2014-cü ildə ”Azersky” peykinin orbitə çıxarılması ilə ”Azərkosmos” Yer səthinin məsafədən zondlanması üzrə kommersiya fəaliyyətinə başlayıb. Bu gün ”Azersky” peyki sayəsində dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə birbaşa çıxış mövcuddur. Peyk müdafiə və təhlükəsizlik, təbii ehtiyatların kəşfiyyatı, dəniz və okean monitorinqi, ətraf mühitin mühafizəsi, şəhərsalma, xəritəçəkmə, kənd təsərrüfatı və turizm kimi geniş tətbiq sahələrinə malikdir.

***- "Azərkosmos"un həyata keçirdiyi ən mühüm layihələr barədə məlumat verə bilərsinizmi? Hansı ölkələrlə əməkdaşlıq qura bildiniz və hansı xidmətlər göstərilir?***

- 2013-cü ildə ilk ”Azerspace-1” peyki orbitə buraxıldıqdan sonra ”Azərkosmos” qlobal kosmik birliyin bir hissəsi oldu. Üç peykdən 10 il ərzində ümumi gəlir 510 milyon manatdan çox olub. 15 illik fəaliyyəti ərzində agentlik həm ölkə daxilində, həm də xaricdə uğur qazanıb. Məsələn, işçilərin sayı 80 nəfərdən 200 nəfərə qədər artıb. Kadrlar üçün mütəmadi olaraq təlimlər və təkmilləşdirmə kursları keçirilir. Hazırda bütün əməliyyatlar dünyanın aparıcı peyk agentlikləri və provayderləri tərəfindən təlim keçmiş yerli kadrlar tərəfindən həyata keçirilir.

Bu günə kimi biz qlobal kosmik bazarın əsas seqmenti olan peyk xidmətləri bazarında sabit mövqe tuta bilmişik. Avropa, Afrika, Yaxın Şərq, Mərkəzi və Cənub-Qərbi Asiyanın 42 ölkəsindən 200-dən çox müştəriyə ”Azərkosmos”un peykləri vasitəsilə xidmət göstərilir. Peyk xidmətlərinin ixracı ”Azərkosmos”un əsas gəliridir. Biz Azerspace-1 və Azerspace-2 telekommunikasiya peyklərimiz vasitəsilə video, məlumat və teleportasiya üçün xidmətlər və həllər təklif etməklə yüksək keyfiyyətli və təhlükəsiz peyk rabitəsini təmin edirik. 2022-ci ildə biz peyk xidmətləri və həlləri sahəsində İtaliya, Çin və Yaponiya şirkətləri ilə əməkdaşlığa başladıq.

Onların arasında ”Azərkosmos” ilə İsveçrənin ”Signalhorn” şirkəti arasında müqavilənin imzalanması da var. Müqaviləyə əsasən, genişzolaqlı peyk xidmətləri, həmçinin ”iDirect” peyk rabitə platformasından istifadə etməklə Afrikada humanitar layihələr üçün geniş spektrli digər peyk xidmətləri göstərilir.

”Azərkosmos”un idarə etdiyi telekommunikasiya peykləri sayəsində digər məsələlərlə yanaşı, Afrika qitəsində beynəlxalq idman yarışlarının yayımlanması imkanları da genişlənib. Belə ki, ”Azərkosmos” və ”iKO Media Group” yayım şirkəti arasında bağlanmış müqavilə çərçivəsində 2022-ci il futbol üzrə 22-ci dünya çempionatının oyunları ”Azerspace-1” peyki vasitəsilə Afrika regionunun 40-dan çox ölkəsində yayımlanıb.



Ardı Səh. 15

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*



# Azərbaycan regionun kosmik mərkəzinə çevrilib

Əvvəli Səh. 14

Qeyd olunan sazişlər arasında İtaliyanın ”Leaf Space” yerüstü idarəetmə xidməti provayderi ilə qarşılıqlı faydalı prinsiplər əsasında əməkdaşlıq haqqında sazişi də qeyd etmək lazımdır. Müqaviləyə əsasən, ”Azərkosmos” ASC-nin Yerüstü Peyk İdarəetmə Baş Mərkəzində quraşdırılan yerüstü stansiya ”Leaf Space”-ə Azərbaycan üzərindən keçən müxtəlif peyklərdən məlumat almağa imkan verəcək.

Ötən ilin dekabrında ”2019-2022-ci illər üçün Yer səthinin peyklər vasitəsilə məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair Dövlət Proqramı”nın icrası başa çatıb. İki telekommunikasiya peyki və Yerin müşahidə peyki vasitəsilə, ilk növbədə, ölkənin daxili tələbatının ödənilməsi istiqamətində işlər aparılıb. Son illər ölkə daxilində peyk xidmətlərindən istifadə artıb- ”Azərkosmos” dövlət orqanları və təhsil müəssisələri ilə birlikdə məsafədən müşahidə peykindən istifadə etməklə 400-ə yaxın layihə həyata keçirib və onların əksəriyyəti pulsuz həyata keçirilib.

Biz Kənd Təsərrüfatı Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə işləyərək ekoloji dəyişikliklərin monitorinqi və kənd təsərrüfatı istehsalı üçün torpaq ehtiyatlarının qiymətləndirilməsi baxımından böyük nəticələr əldə etmişik. O cümlədən, ”Azərkosmos” işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində görülən işləri qiymətləndirir. Peyk çəkilişlərindən balıqçılıq təsərrüfatının yaradılmasında, istixana komplekslərinin quraşdırılmasında, işğaldan azad edilmiş ərazilərdə aqroparkların yaradılması üçün əlverişli ərazilərin müəyyən edilməsində istifadə olunur. Qeyd edək ki, bu gün Azərbaycan informasiya təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edən telekommunikasiya xidmətləri sahəsində xarici dövlətlərdən asılılığı tamamilə aradan qaldırıb.

Bu il biz uğurla inkişaf etməyə davam edirik və artıq bir neçə mühüm müqavilə, o cümlədən Keniya Respublikasında peyk xidməti təminatçısı olan ”CommCarrier Satellite Services Limited” ilə uzunmüddətli layihələr üzrə əməkdaşlıq haqqında saziş imzalamışıq. Müqaviləyə əsasən, ”Azerspace-2” peykindən internet xidmətləri Keniya Respublikasının dövlət orqanlarına təqdim edilir. Mart ayında Yaxın Şərq, Avropa İttifaqı və Şimali Amerikada peyk rabitəsi operatoru olan İsrailin ”Spacecom” şirkəti ilə müqavilə imzalanıb. ”Spacecom” xidmət coğrafiyasını genişləndirmək, xüsusilə Afrika regionunda peyk xidmətləri və mobil rabitə ilə təmin etmək layihələrini həyata keçirmək üçün ”Azerspace” peyklərinin imkanlarından istifadə edəcək.

***- Bakı 2-ci dəfə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. İlk dəfə bu hadisə hələ 1973-cü ildə, Azərbaycan Sovet İttifaqının tərkibində olarkən baş verib. Necə oldu ki, bu mötəbər tədbirin keçiriləcəyi məkan kimi yenidən Azərbaycan seçildi?***

- Biz fəxr edirik ki, 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi ”Azərkosmos”a həvalə olunub. Konqresə ev sahibliyi etmək hüququ uğrunda Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Yeni Dehli mübarizə aparıb.



Azərbaycan regionda yeganə ölkədir ki, ikinci dəfə qlobal kosmik foruma ev sahibliyi edəcək. 50 il əvvəl SSRİ-nin tərkibində olan Azərbaycan ”Kosmik tədqiqatlar- elmə və texnologiyaya nüfuz” devizi altında 24-cü Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etdi.

Beynəlxalq Astronavtika Federasiyasının 2019-cu ildə Vaşinqtonda keçirilən Baş Assambleyasında Bakı 2-ci dəfə kosmik sənayenin ən mötəbər tədbirinə ev sahibliyi etmək hüququ qazandı. 74-cü Beynəlxalq Astronavtika Konqresi 2-6 oktyabr 2023-cü il tarixlərində ”Qlobal Çağırışlar və İmkanlar: Kosmosa şans verək” mövzusu altında keçiriləcək.

Bu tədbirin bizim üçün simvolik mənası var, həm də ona görə ki, ”Heydər Əliyev ili” elan edilmiş 2023-cü ildə keçirilir. Məhz Azərbaycanın ümummilli lideri sayəsində 1973-cü ildə dünyanın bir çox ölkələrinin tanınmış alimlərinin və kosmonavtlarının iştirakı ilə Bakıda beynəlxalq konqres keçirildi və 1974-cü ildə Azərbaycan Milli Aerokosmik Agentliyi yaradıldı. Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində ”Xəzər” mərkəzi kimi fəaliyyət göstərmişdir.

Biz konqresə ev sahibliyi etməklə nəinki müstəqil respublika kimi Azərbaycanı beynəlxalq kosmik ictimaiyyətə açmaq, həm də bəşəriyyətin rifahı naminə qabaqcıl peyk həlləri təqdim etmək sahəsində regional mərkəzə çevrilmək istəyimizi nümayiş etdirə biləcəyik. ”Azərkosmos” qısa müddətdə peyk rabitəsi operatorundan uğurla Azərbaycanın bu sahədə milli siyasətini həyata keçirən kosmik quruma çevrilib. Eyni zamanda, regionda dünyanın 40-dan çox ölkəsinə Yerin müşahidəsi və telekommunikasiya xidmətləri göstərməkdə əsas rol oynayan ilk və indiyədək yeganə regional peyk operatorudur.

Əminəm ki, Bakı Konqresi bir tərəfdən kosmik elm sahəsində əldə edilmiş nailiyyətlərin və kosmik sənayenin inkişafının ən son tendensiyalarının müzakirəsi üçün platforma yaratmaqla qlobal kosmik missiyanın inkişafına töhfə verəcək və bir tərəfdən kosmik sənayenin inkişafı üçün geniş imkanlar yaradacaqdır.

***- Beynəlxalq Astronavtika Konqresinə hazırlıq necə gedir? Bu tədbirin xüsusiyyəti nə olacaq?***

- 74-cü Beynəlxalq Astronavtika Konqresinə hazırlıq tam sürətlə gedir. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış və tədbirin təşkilində iştirak edən dövlət orqanlarının rəhbərlərindən ibarət Təşkilat Komitəsinin 2023-cü il yanvarın 10-da Azərbaycanın Baş Naziri Əli Əsədovun sədrliyi ilə ilk iclası keçirilib. Biz qarşıdan gələn konqresin təşkilatçısı- Beynəlxalq Astronavtika Federasiyası ilə sıx əlaqə saxlayırıq və konqresin plenar və texniki proqramını təsdiqləyirik, belə ki, tədbir çərçivəsində 200-ə yaxın texniki sessiyanın, interaktiv təqdimatların və ixtisaslaşdırılmış tədbirlərin keçirilməsi planlaşdırılır.







Bakı konqresi çərçivəsində 95 ölkədən kosmos alimləri və tədqiqatçıları təqdimat üçün 3532 elmi məqalə təqdim ediblər və Federasiyanın məlumatına görə, bu, ölkələri əhatə edən rekord göstəricidir.

Bu il Azərbaycan alim və tələbələri tərəfindən təqdim olunmuş elmi məqalələrin sayı da rekord həddə çatıb- 214. Məqalələrin sayına görə ölkə rekordunu qıran Azərbaycan, Amerika, İtaliya, Hindistan və Çinlə birlikdə ən çox elmi məqalə təqdim edən ilk beşliyə daxil olub.

Bu, ölkəmizdə insan kapitalının, elm və texnologiyanın inkişafına göstərilən diqqətin əyani sübutudur. Getdikcə daha çox gənc texniki elmlərə maraq göstərir və biz elmi tədqiqatların nəticələrini beynəlxalq platformalarda nümayiş etdirmək imkanı yaratmaqla onlara dəstək oluruq. Konqres Azərbaycan gəncləri və startapları üçün qlobal kosmik sənaye tədbirində iştirak etmək və potensial investorların marağını cəlb etmək üçün əla fürsətdir.

400-dən çox təşkilat və 71 ölkə Beynəlxalq Astronavtika Federasiyasının üzvüdür. Əgər 1973-cü ildə Bakı qurultayına dünyanın 17 ölkəsindən 1500-dən çox nümayəndə gəlmişdisə, qarşıdan gələn qurultayda 100 ölkədən 6000-ə yaxın insanın iştirakı gözlənilir. Tədbirimizə rusiyalı mütəxəssislər böyük maraq göstərirlər.

Bakı Konqresi beynəlxalq kosmos ictimaiyyətində böyük maraq doğurur və biz bu sahənin görkəmli şəxslərinin, eləcə də dünya şöhrətli astronavtların iştirakını gözləyirik. Avropa Kosmik Agentliyi, ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsi (NASA), Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi (JAXA), dünyanın ən böyük təyyarə istehsalçıları ”The Boeing” və ”Airbus” da daxil olmaqla, kosmik sektorda fəaliyyət göstərən bir sıra kosmik agentliklər və təşkilatlar iştiraklarını təsdiqləyiblər.



Konqres üçün onlayn qeydiyyat artıq açıqdır və burada iştirak etmək istəyən hər kəsi iyunun 14-nə kimi sərfəli tariflərdən yararlanmağa tələsməyə çağırıram. Siz www.iac2023.org saytında qeydiyyatdan keçib konqreslə bağlı xəbərləri əldə edə bilərsiniz. Biz gələn qonaqlar üçün ən əlverişli şərait yaratmağa çalışırıq və onların rəqabətədavamlı qiymətlərlə uçuşlar və otellər bron edə biləcəkləri vahid bron sistemi yaratmışıq.

Konqres üçün Bakı Konqres Mərkəzi, Heydər Əliyev Mərkəzi və iki mərkəz arasında tikiləcək sərgi salonundan ibarət kompleks yaradılacaq. Konqres iştirakçıları üçün onları Azərbaycanın zəngin milli, mədəni və tarixi irsi və qonaqpərvərliyi ilə tanış edəcək xüsusi turlar və mədəni proqram hazırlanır. İnanırıq ki, Bakı Konqresi bir tərəfdən qonaqlarımız üçün unudulmaz hadisə olacaq, həm də ölkədə və regionda kosmik elm və texnologiyanın inkişafına təkan verəcək.

***Tərcümə - Elçin Bayramlı***

Son səhifə
SƏS
18 aprel
2023-cü il

## Tütün ixracatının azalması iqtisadiyyata necə təsir edəcək?



"Bütövlükdə tütün istehsalı və ixracatı həm də mövsümi faktorlarla bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, faktiki olaraq mövsümi faktorlar ixracata, eləcə də istehsala birbaşa təsir göstərir: "Bu baxımdan Azərbaycan üçün tütün istehsalının genişləndirilməsi, ixracatın artırılması prioritet məsələdir. Təbii ki, növbəti aylarda da bu öz aktuallığını qoruyub saxlayacaq. Xüsusən də 2023-cü ilin ikinci yarısında biz tütün məhsulunun ixracatında artımları müşahidə edəcəyik. Ümumilikdə isə tütün istehsalının artırılması Azərbaycan üçün prioritet amil sayıldığından qeyri-neft sektorunda əsas məhsullardan biri kimi xarakterizə olunur. Ona görə də azalmanın baş verməsi mövsümlə əlaqədardır. Lakin artımlar isə növbəti aylarda gözlənilir".

***Banuçiçək Hüseynli***

## Bu il qəbul imtahanlarında ballar aşağı düşəcək?







**TƏHSİL EKSPERTİ MƏSƏLƏYƏ AYDINLIQ GƏTİRDİ**

16 aprel 2023-cü il tarixində Bakı şəhərinin Binəqədi, Qaradağ, Suraxanı, Yasamal rayonlarında, Gəncə (II hissə), Sumqayıt (I hissə) şəhərlərində, Abşeron (I hissə), Ağdaş, Beyləqan, Cəlilabad (I hissə), Füzuli, Göyçay (I hissə), Göygöl, Gədəbəy, Hacıqabul, Xaçmaz (I hissə), Qəbələ, Qobustan, Quba (I hissə), Masallı (I hissə), Neftçala, Oğuz, Sabirabad, Tovuz, Yardımlı, Zəngilan (Ağalı kəndi) rayonlarında ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. Bəs, imtahan nəticələri necə olub? Sualların həll olunma səviyyəsi necə idi? Bu il qəbul imtahanlarında ballar aşağı düşəcək? SİA mövzu ilə bağlı təhsil eksperti Nadir İsrafilovun fikirlərini öyrənib.

Onun sözlərinə görə, çətin və asan suallar olmur, anlaşılmayan və anlaşılan suallar olur: "Hər buraxılış, istərsə də qəbul imtahanları başa çatar-çatmaz imtahan nəticələri necə olub, sualların səviyyəsi necə idi, bu il qəbul imtahanlarında ballar aşağı düşəcəkmi, 700 bal toplayan olacaqmı və s. bu kimi suallar geniş müzakirə obyektinə çevrilir, hətta imtahan ərəfəsində müxtəlif proqnozlar verilir, əsasən də təhsilin keyfiyyətinin aşağı düşməsi ilə bağlı radikal mülahizələr səsləndirilir. Bu da təbiidir, təhsilimizin vəziyyəti geniş maraq dairəsindədir".

Nadir İsrafilov sözlərinə belə davam edib: "Hərə məsələyə bir cür yanaşır. Dövlət İmtahan Mərkəzi öz arqumentlərini gətirir və izah etməyə çalışır ki, bu suallar hamısı qanunauyğun salınıb. İndi kimlərsə izah edir ki, burada dərsliyə düşməyən tədris planından fərqli suallar salınır, ona görə uşaqlar çətinlik çəkirlər. Dövlət İmtahan Mərkəzi isə öz cavabında əsaslandırır ki, burada tədris planından kənar heç bir sual salınmayıb. Yəni, bu kimi çəkişmələr uzun illərdən bəri davam edir və imtahan modelində hər hansı bir dəyişiklik edilməyənə qədər davam edəcəyinə də heç kəs zəmanət verə bilməz.

Əvvəla, onu deyim ki, bütün bu həyəcanlar və pessimist proqnozlar əsasən ali məktəblərə qəbul olmaq marağında irəli gəlib, imtahanların iki mərhələli keçirilməsi, buraxılış və qəbul qaydalarında və test tapşırıqlarının formalarında dəyişiklik edilməsi, məzunlara və abituriyentlərə yeni qaydalara alışmaq üçün müəyyən vaxt lazım olması, ümumiyyətlə, bu məsələnin imtahanın səviyyəsi haqqında hər hansı fikir yürütmək üçün əsas ola bilməməsi, bununla bağlı daha ciddi araşdırma, daha dərin təhlil, daha dərin müqayisə aparılması zərurəti ilə izah olunur.

Hansısa ildə kimlərinsə yüksək və ya zəif nəticə göstərməsi təhsilin keyfiyyətinin yüksəlməsi və ya aşağı düşməsi barədə hər hansı bir konkret nəticə çıxarmaq üçün əsas ola bilməz. Biz isə hələ də təhsilin keyfiyyətini neçə nəfərin ali məktəbə qəbul olunması, neçə nəfərin 500-700 civarında bal toplaması ilə ölçürük. Halbuki təhsilin keyfiyyəti daha geniş anlayış olub, cəmiyyətdə təhsil prosesinin vəziyyətini və səmərəliliyini göstərməklə yanaşı, həm də şəxsiyyətin vətəndaşlıq, peşə və məişət səriştəsizliyinin cəmiyyətin tələblərinə uyğunluğunu nümayiş etdirən sosial kateqoriya kimi xarakteriza olunur.

Razılaşaq ki, ola bilsin ki, hər hansı ixtisas qrupunda nəticələr bu və ya hansısa il yüksək və ya aşağı olsun. Bunlar dəyişəndir. Lakin məsələ ondadır ki, məsələyə yanaşma tərzimiz dəyişməz olaraq qalır. Hələ də qəbul edə bilmirik və ya qəbul etmək istəmirik ki, təhsilin keyfiyyəti 700 ballıq şkala ilə və ən başlıcası isə bir-iki ilin nəticələri ilə ölçülə bilməz. Bu məntiqlə yanaşsaq, 2017-ci ildə 15, 2018-ci ildə 29 nəfər 700 ballıq tələbəmiz olmaqla həmin illər təhsilimizdə keyfiyyət özünün pik həddinə çatıb, son 3 ildə isə təhsilimiz özünün ən uğursuz illərini yaşayır!?

Bir də ki, çətin və asan suallar olmur, anlaşılmayan və anlaşılan suallar olur. Kimlərsə suala daha anlaşıqlı tərzdə yanaşır, kimlərinsə anlaşıq səviyyəsi aşağıdır. Əks halda testə salınan hansısa bir sual ümumilikdə cavabsız qalardı. Bəli, bir çox hallarda testlərin düzgün tərtib edilməməsi, digər texniki qüsurlar, bəzi sual və tapşırıqların məktəbdə tədris olunan fənn proqramları ilə uzlaşmaması, təhsilalanların dərsliklər üzrə deyil, daha çox test kitabçaları üzrə hazırlaşmaları, test tapşırıqlarına məktəbdə tədris olunmayan məntiqə dair sualların salınması və digər bu kimi subyektiv səbəblər biliyin obyektiv qiymətləndirilməsini nəinki, təmin edə bilməyib, hətta çoxsaylı lüzumsuz apellyasiyalara səbəb olub ki, bu da zaman-zaman müəyyən narazılıqlarla müşayət olunub və bu günün özündə də müşayət olunmaqdadır.

Ümumiyyətlə, keyfiyyətli təhsil nə deməkdir? Təhsilin keyfiyyəti nə ilə müəyyən olunur? Təhsilin keyfiyyətini necə idarə etmək olar? Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici nədir və ya hansılardır? Bu göstəriciləri keyfiyyətin qiymətləndirilməsində obyektiv meyar, etibarlı mənbə hesab etmək olarmı? Hansısa bir konkret nəticədən çıxış edərək, bütövlükdə təhsil sisteminin fəaliyyətini qiymətləndirmək mümkündürmü? Bu barədə düşünməliyik".

***Ayşən Vəli***



## Nikahların sayı azalıb, boşanmalar artıb

Bu ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri 7 541 nikah və 3 014 boşanma halı qeydə alıb. SİA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,9-dan 4,6-ya düşüb, boşanmaların sayı isə 1,5-dən 1,8-ə qədər artıb.

## Yol polisi dumanlı hava şəraiti ilə bağlı xəbərdarlıq edir!

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) dumanlı hava şəraiti ilə bağlı hərəkət iştirakçılarına xəbərdarlıq edib. BDYPİ-dən AZƏRTAC-a daxil olan xəbərdarlıqda deyilir: "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata əsasən aprelin 17-də ölkə ərazisində dumanlı hava şəraiti ilə əlaqədar magistral avtomobil yollarının bəzi yerlərində görünüş məsafəsinin 200-700 metrədək məhdudlaşacağı gözlənilir.**




Gecə və səhər saatlarında daha çox müşahidə olunan dumanlı hava digər hərəkət iştirakçılarının, eləcə də nizamlama vasitələrinin vaxtında və aydın görünməsinə ciddi maneə yaratdığı üçün sürücülərdən belə havalarda daha diqqətli olmaq, sürət həddini və ara məsafəsini hava şəraitinə uyğun seçmək, nəqliyyat vasitələrinin, xüsusilə xarici işıq cihazlarının sazlığına əmin olmaq, dayanma, durma, parklanma, eləcə də ötmə və manevr zamanı təhlükəsizlik qaydalarına ciddi əməl etmək tələb edilir".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**